Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

*(Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev)*

*Biblioqrafiya*

**Bakı – 2020**

**Tərtib edənlər:** **Lalə Şirinova,**
**Xeyransa Abbasova**

**Ön sözün müəllifi:** **İsa Həbibbəyli,**
*Akademik*

**Elmi redaktor:** **Kərim Tahirov,**
P*rofessor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **L.Miryaqubova**

**Əbdürrəhim bəy Haqverdiyev** (Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev)**:** Biblioqrafiya /Tərt. ed. L.Şirinova, X.Abbasova; ön söz.müəl. İ.Həbibbəyli; elmi red. K.Tahirov; red. L.Miryaqubova – Bakı, 2020. – 336 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Əbdürrəhim bəy Haqverdiyev" biblioqrafiyası görkəmli yazıçı-dramaturq, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyinə həsr edilmiş ilk fundamental biblioqrafiyadır. Biblioqrafiyada ədibin kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, həyat və yaradıcılığını əks etdirən zəngin materiallar öz əksini tapmışdır.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı–biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 542 16 5

**©Azərbaycan Milli Kitabxanası, 2020**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# АБДУРРАГИМ БЕК АХВЕРДИЕВ

## (Абдуррагим бек Асад бек оглы Ахвердиев)

## Библиография

**Баку – 2020**

**Составители:** **Лала Ширинова,**
**Хейранса Аббасова**

**Вступительное слово:** **Иса Габиббейли,**
*Академик*

**Научный редактор:** **Керим Тахиров,**
*профессор,*
*Заслуженный деятель культуры*

**Redaktor:** **Л.Мирягубова**

**Абдуррагим бек Ахвердиев** (Абдуррагим бек Асад бек оглы Ахвердиев): Библиография /Сост.: Л.Ширинова, Х.Аббасова; вступит. слово И.Габиббейли; науч.ред. К.Тахиров; ред. Л.Мирягубова– Баку, 2020. - 336 с.

Подготовленная Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова из серии «Выдающиеся деятели Азербайджана» библиография «Абдуррагим бек Ахвердиев» посвящена 150-летию со дня рождения выдающегося литературоведа, критика, переводчика, писателя-драматурга Абдуррагима бека Ахвердиева.

В библиографию вошли книги и рукописи Абдуррагим бека Ахвердиева, его труды опубликованные в периодической печати и различных сборниках, научно-публицистические статьи, а также материалы о жизни и творчестве драматурга. Библиография предназначена для ученых-литературоведов, библиотекарей-библиографов и широкого круга читателей.

ISBN 978 9952 542 16 5

**©Национальная Библиотека Азербайджана, 2020**

# "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist və teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi tamam olur.

Əbdürrəhim bəy Haqverdiyev öz məşhur sələflərinin ədəbi ənənələrinin layiqli davamçısı və geniş erudisiyaya malik müasir dünyagörüşlü maarifpərvər ziyalı kimi çoxşaxəli fəaliyyət göstərmiş, Azərbaycan realist ədəbiyyatını və maarifçi–demokratik fikrini yeni mərhələyə qaldıraraq milli düşüncənin inkişafında əhəmiyyətli rol oynamışdır. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin yüksəlişinə yol açmışdır. Onun canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Vətənpərvər ədib sevdiyi və təmənnasız xidmətində dayandığı xalqın arzu və istəklərini əsərlərində dolğun əks etdirmiş, maarifçiliyin alovlu təbliğatçısı olaraq daim mədəni oyanışa və tərəqqiyə səsləmişdir. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ictimai həyatında fəal iştirak etmiş və sosial-mədəni quruculuq işlərində yorulmadan çalışmışdır.

Əbdürrəhim bəy Haqverdiyevin adının UNESKO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi çoxəsrlik ədəbiyyatımızın parlaq siması olan ədibin mənəvi sərvətlərimizi və ali ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən humanist ruhlu yaradıcılığının lazımınca və yüksək qiymətləndirilməsinin aydın təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının ədəbi-bədii

və mədəni-ictimai fikir xəzinəsinə töhfələr bəxş etmiş qüdrətli söz ustası Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük ədib Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2020-ci il.***

# Распоряжение Президента Азербайджанской Республики «О проведении 150-летнего юбилея Абдуррагим бека Ахвердиева»

В мае 2020 года исполняется 150 лет со дня рождения выдающегося представителя азербайджанской литературы, видного драматурга, прозаика, публициста и театрального организатора, известного общественного деятеля Абдуррагим бека Ахвердиева.

Абдуррагим бек Ахвердиев осуществлял многогранную деятельность как достойный продолжатель литературных традиций своих знаменитых предшественников, интеллигент, обладавший широкой эрудицией и современным мировоззрением, подняв азербайджанскую реалистическую литературу и просветительско-демократическую мысль на новый уровень, сыграл значимую роль в развитии национального сознания. Драматургическое наследие мастера открыло путь прогрессу театральной культуры в нашей стране. Его богатые картинами реальной жизни рассказы занимают особое место среди самых ценных образцов нашей прозы. Писатель-патриот во всей полноте отразил в своих произведениях желания и чаяния народа, который любил и которому безвозмездно служил, как пламенный пропагандист просветительства всегда призывал к культурному пробуждению и прогрессу. Абдуррагим бек Ахвердиев принимал активное участие в общественной жизни Азербайджана, неутомимо трудился в сфере социально-культурного созидания.

Включение имени Абдуррагим бека Ахвердиева в список юбилеев выдающихся лиц и знаменательных событий ЮНЕСКО на 2020-2021 годы – наглядное проявление заслуженной и высокой оценки творчества писателя-гуманиста

как яркой личности нашей многовековой литературы, олицетворяющей наши духовные и высшие общечеловеческие ценности.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях обеспечения 150-летия могучего мастера слова Абдуррагим бека Ахвердиева, внесшего вклад в сокровищницу литературно-художественной и культурно-общественной мысли азербайджанского народа, постановляю:

1.Министерству культуры Азербайджанской Республики совместно с Министерством иностранных дел Азербайджанской Республики, Министерством образования Азербайджанской Республики и Национальной Академией Наук Азербайджана с учетом предложений Союза писателей Азербайджана подготовить и осуществить план мероприятий, связанных со 150-летним юбилеем выдающегося писателя Абдуррагим бека Ахвердиева.

2.Кабинету Министров решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев,**
***Президент Азербайджанской Республики***
***город Баку, 31 января 2020 года.***

# Göstərici haqqında

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Əbdürrəhim bəy Haqverdiyev" biblioqrafiyası görkəmli ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyinə həsr olunmuşdur.

Əbdürrəhim bəy Haqverdiyev haqqında ilk biblioqrafiya dramaturqun anadan olmasının 94 illik yubileyi münasibətilə Azərbaycan Dövlət Kitab Palatası tərəfindən 1964-cü ildə (Əbdürrəhim bəy Haqverdiyev: biblioqrafiya / Tərt. ed.: V.Mirzəyeva; redaktor: R.Kazımov. – Bakı, 1964. – 72, [4] s.) çap olunmuşdur.

Azərbaycan Milli Kitabxanasının yubiley münasibətilə tərtib etdiyi bu yeni biblioqrafiya daha da təkmilləşdirilmiş, yeni bölmələr və yarımbölmələr əlavə edilmişdir. Biblioqrafiyanın əvvəlində Azərbaycan Respublikası Prezidentinin 31 yanvar 2020-ci ildə imzaladığı "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı, "Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxsiyyətlər Əbdürrəhim bəy Haqverdiyev haqqında", "Əbdürrəhim bəy Haqverdiyevin müdrik fikirləri" bölmələri verilmişdir.

Biblioqrafiya 1892-2020-ci illərə aid Azərbaycan, rus və digər dillərdə çap olunmuş materialları əhatə edir. Biblioqrafiyada Əbdürrəhim bəy Haqverdiyevin kitabları, əlyazmaları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi və publisistik məqalələri, habelə dramaturqun həyat və yaradıcılığını əks etdirən materiallar öz əksini tapmışdır. İlk dəfə olaraq "Əbdürrəhim bəy Haqverdiyev dünya kitabxanalarında" və "Əbdürrəhim bəy Haqverdiyev dünya universitet kitabxanalarında" bölmələri də tərtib edilərək biblioqrafiyaya daxil edilmişdir.

Biblioqrafiyada ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda Əbdürrəhim bəy Haqverdiyevin əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri tərtib edilmişdir.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ– 1000, Bakı şəh., Xaqani küç. 57.
**E– mail:** contact@anl.az

# Об указателе

Подготовленная Азербайджанской Национальной Библиотекой им.М.Ф.Ахундова из серии «Выдающиеся деятели Азербайджана» библиография «Абдуррагим бек Ахвердиев» посвящена 150-летию со дня рождения выдающегося литературоведа, критика, переводчика, писателя-драматурга Абдуррагима бека Ахвердиева.

Первая библиография об Абдуррагимбеке Ахвердиеве приуроченная к 94-летнему юбилею драматурга была издана Азербайджанской Государственной Книжной Палатой в 1964 году (Абдуррагим бек Ахвердиев: библиография/ сост. В.Мирзоева; редактор: Р.Кязимов. – Баку,1964. – 72, [4] с.)

Новая библиография, подготовленная Азербайджанской Национальной Библиотекой к 150-летному юбилею писателя, усовершенствована и дополнена новыми разделами и подразделами. В самом начале библиографии приводится Распоряжение Президента Азербайджанской Республики от 31 января 2020 года «О проведении 150-летнего юбилея Абдуррагим бека Ахвердиева», а также разделы: «Основные даты жизни и творчества Абдуррагима бека Ахвердиева», «Выдающиеся личности об Абдуррагиме беке Ахвердиеве», «Цитаты и афоризмы Абдуррагима бека Ахвердиева»

В библиографии отражены материалы на азербайджанском, русском и других языках за 1892-2020 гг. В библиографию вошли книги и рукописи Абдуррагим бека Ахвердиева, его труды опубликованные в периодической печати и различных сборниках, научно-публицистические статьи, а также материалы о жизни и творчестве драматурга. Впервые были разработаны и включены в библиографию разделы «Абдуррагим бек Ахвердиев в библиотеках мира» и

«Абдуррагим бек Ахвердиев в библиотеках университетов мира.»

Литература в библиографии представлена в хронологическом порядке, внутри же разделов соблюдается алфавитный порядок.

Для облегчения работы с библиографией в конце приводится алфавитный указатель произведений Абдуррагим бека Ахвердиева и алфавитный указатель авторов, писавших о нем.

Считаем необходимым также отметить, что в некоторых источниках на русском языке фамилии А.Ахвердиева и Н.Везирова приводятся как Ахвердов и Вазиров. Это связано с вариативностью передачи на русском языке специфических букв азербайджанского алфавита и в таких случиях фамилия А.Ахвердиева приведено как в оригинале.

Заранее благодарим читателей за предложения и замечания и просим направлять их в Национальную Библиотеку им. М.Ф.Ахундова.

**Адрес:** AZ-1000, г.Баку., ул. Хагани,57.
**E-mail:** contact@anl.az.

# TƏNQİDİ-REALİST ƏDƏBİYYATDA FƏRQLİ SİMA: ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

Görkəmli Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyev milli ədəbiyyatımızın və ictimai fikrimizin inkişafında böyük rolu olan bənzərsiz sənətkardır. Əsasən şeir və publisistika üstündə köklənmiş "Molla Nəsrəddin" məktəbində və ümumən tənqidi-realist ədəbiyyatda fərqli ədəbi simadır. O, Azərbaycan ədəbiyyatının tarixinə yumoristik bədii nəsrin, astral dramın, memuar pyesin, hekayələr və felyetonlar silsiləsinin yaradıcısı kimi daxil olmuşdur. Azərbaycanda ictimai fikrin və mədəni hərəkatın inkişafında da Əbdürrəhim bəy Haqverdiyevin böyük xidmətləri olmuşdur.

Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 17 may 1970-ci ildə Qarabağın inzibati və mədəni mərkəzi olan Şuşa şəhərinin yaxınlığındakı Ağbulaq kəndində doğulmuşdur. Fars və rus dillərini yaxşı bilən və qəza idarəsində tərcüməçi vəzifəsində işləyən atası Əsəd bəy Əbdürrəhimin üç yaşı olduğu vaxt dünyasını dəyişmişdir. Bundan sonra Əbdürrəhim bəy Haqverdiyev bir müddət əmisi Əbdülkərim bəyin himayəsində yaşamalı olmuşdur. Lakin Əbdülkərim bəy 1875-ci ildə vəfat etdikdən sonra Əbdürrəhim bəy artıq Həsənəli bəy Sadıqbəyova ərə getmiş anası Hüsnücahan xanımın yanına qayıtmışdır. Əbdürrəhim bəy Haqverdiyev sonralar təlim-tərbiyəsində mühüm rolu olmuş Həsənəli bəy Sadıqbəyovun ona bəslədiyi doğma münasibətindən çox razı qaldığını bildirmişdir. Həmin xeyirxah insanın yaratdığı imkanlar sayəsində onun ailəsi ilə birlikdə Şuşa şəhərində yaşamış, burada əvvəlcə 1880-ci ildə Yusif bəy Məlikhaquəzərovun yay hazırlıq məktəbində, daha sonra isə 1881-ci ildən – 1890-cı ilədək Şuşa realnı məktəbində təhsil almışdır. Əbdürrəhim bəy Haqverdiyev Yusif bəy Məlikhaquəzərovun məktəbində oxuyarkən həyatında ilk dəfə olaraq məktəbdə müəllimlər və şagirdlər

tərəfindən hazırlanmış Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" tamaşasına baxmış, bu hadisə onun gələcək yaradıcılıq həyatına müsbət təsir göstərmişdir. Şuşa real məktəbinin şagirdi kimi isə o, ilk qələm təcrübəsi olan "Hacı Daşdəmir" pyesini yazmış, görkəmli rus şairi İvan Krılovun "At və eşşək" təmsilini Azərbaycan dilinə tərcümə etmişdir. Tiflis realnı məktəbində təhsil aldığı cəmi bir il ərzində Əbdürrəhim bəy Haqverdiyev Avropa və Rusiya yazıçılarının əsərlərini mütaliə etmək imkanı qazanmış, Qafqazın mərkəzi şəhərinin mədəni həyatının imkanlarından faydalanmış, "Nahaq qan" adlı dram əsərini bitirmişdir. Bunun ardınca 1991-ci ildə təhsilini davam etdirmək üçün Peterburqa gedərək Dağ-Mədən İnstitutuna qəbul olmaq arzusu baş tutmasa da, orada yaşaması onun dünyagörüşünün inkişafında mühüm rol oynamışdır. Əbdürrəhim bəy Haqverdiyevin 1894-cü ildən 1999-cu ilə qədər əvvəlcə Peterburq Yol Mühəndisləri İnstitutunda, sonra isə Peterburq Universitetinin Şərq fakültəsində keçən tələbəlik illəri onun ideya-mənəvi inkişafında xüsusi bir mərhələyə çevrilmişdir. Bütün Rusiyada ad-san qazanmış və Avropa ölkələrində də tanınan məşhur Peterburq Aleksandrinski teatrı Əbdürrəhim bəy Haqverdiyev üçün ikinci bir universitet funksiyasını yerinə yetirmişdir. Gənc tələbə-yazıçının həyatının Peterburq dövründə "Yeyəsən qaz ətini, görəsən ləzzətini" pyesini (1892) və "Dağılan tifaq" faciəsini (1896) yazmasında buradakı ədəbi-mədəni mühitin özünəməxsus təsiri ayrıca qeyd edilməlidir.Yay tətili zamanı, 1897-ci ildə Şuşa şəhərində Əbdürrəhim bəy Haqverdiyevin rejissorluğu ilə "Məcnun Leylinin qəbri üzərində" səhnəciyinin tamaşaya qoyulması da artıq onun istedadlı gənc yaradıcı şəxsiyyət kimi formalaşdığını göstərir.

Ali təhsil aldıqdan sonra Əbdürrəhim bəy Haqverdiyev vətənə qayıdaraq Şuşada müəllimlik etmiş və "Bəxtsiz cavan" faciəsini yazıb səhnəyə çıxarmışdır (1900). Bakı şəhərində 1901-1904-cü illərdə pedaqoji fəaliyyətlə məşğul olan cavan maarifçi yazıçı bir çox ədəbi-mədəni tədbirlərin əsas təşkilatçısı kimi çıxış etmişdir. Bu dövrdə o, ilk dəfə olaraq Bakıda Birinci Şərq

konserti təşkil edib keçirmiş, “Müsəlman Dram Truppası”nı yaradaraq teatr tamaşalarına rejissorluq etmişdir. Azərbaycanın ilk qadın aktyoru Minurə xanım Davidovanın teatra cəlb edilməsi də Əbdürrəhim bəy Haqverdiyevin adı ilə bağlıdır. Cavan yazıçının 1901-ci ildə Bakıda yazıb tamamladığı “Pəri cadu” dramı ədəbi mühitdə yeni ədəbi hadisə kimi qarşılanmışdır.

Şuşa şəhər idarəsinə üzv seçildiyi üçün Əbdürrəhim bəy Haqverdiyev 1904-cü ildə yenidə Qarabağa qayıtmışdır.

Birinci Dövlət Dumasına Gəncə Quberniyasından deputat seçilməsi ilə əlaqədar olaraq 1906-cı ildə qısa bir müddət Peterburqda yaşayan Əbdürrəhim bəy Haqverdiyev Dumanın dağılması ilə əlaqədar olaraq Vətənə dönməli olmuşdur. O, 1909-1911-ci illərdə Hacı Zeynalabdin Tağıyevin Gəmiçilik idarəsində çalışaraq Zaqafqaziyanın Xəzər hövzəsinin və İranın bir çox şəhərlərində olmuş, Həştərxanda Nəriman Nərimanovla görüşmüşdür. Görkəmli Azərbaycan dramaturqa Mirzə Fətəli Axundzadənin anadan olmasının 100 illiyi münasibəti ilə 1911-ci ildə Bakıda keçirilmiş təntənəli mərasimdə məruzəçi kimi çıxış etmiş Əbdürrəhim bəy Haqverdiyevin həm də “Xəyalət” tamaşası tədbir iştirakçılarına təqdim olunmuşdur.

Bədii yaradıcılığını da ardıcıl olaraq davam etdirən Əbdürrəhim bəy Haqverdiyev “Həyat” qəzetində çap olunmuş “Ata və oğul”,“Ayın şəhidliyi” hekayələrini (1906), “Molla Nəsrəddin” jurnalının hissə-hissə oxuculara təqdim etdiyi “Xortdanın cəhənnəm məktubları” (1907), “Ağa Məhəmməd şah Qacar” pyesini (1907), məşhur “Bomba” hekayəsini (1909), “Marallarım” silsiləsini (1909), “Ac həriflər” məzhəkəsini (1911), “Şeyx Şəban” hekayəsini (1914) yazmış, istedadlı bir yazıçı kimi məşhurlaşdırmışdır.

Bu dövrdə Əbdürrəhim bəy Haqverdiyev həm də Tiflisdə çıxan “Molla Nəsrəddin” jurnalı ilə yaxından əlaqə saxlamış, böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə ilə tanış olub dostlaşmışdır. Ədib “Molla Nəsrəddin” jurnalının fəaliyyətinə yüksək qiymət vermiş, ədəbi hərəkatın inkişafında Cəlil

Məmmədquluzadənin rolunu diqqət mərkəzinə çəkərək yazmışdır: "Molla Nəsrəddin" jurnalı və xüsusən Cəlil Məmmədquluzadə haqqında yazmaq… 25 il dolanmaqda davam edən bir çarxı nəzərə gətirmək deməkdir. Bu çarxın məhvəri Mirzə Cəlil və onun jurnalı idi… Hesabsız hədə kağızlarına, həcvlərə, maddi və mənəvi vədlərə etina etməyərək öz tutduğu məqsəddən, məsləkdən bir zərrə qədər geri durmamaqla Mirzə Cəlil öz azacıq dostları ilə birlikdə axırda qalib gəlib, həmişəlik bir ad və Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "Molla Nəsrəddin" dövrü qoya bildi".[1]

Əbdürrəhim bəy Haqverdiyevin 1908-ci ildə Üzeyir Hacıbəyovun Bakıda tamaşaya qoyulmuş Şərqin ilk operası olan "Leyli və Məcnun" operasına rejissorluq etməsi Azərbaycan mədəniyyət tarixinin mühüm və əlamətdar hadisəsidir.

Həyatının sonrakı illərində Əbdürrəhim bəy Haqverdiyev "Şəhərlər İttifaqın Qafqaz Şöbəsinin Əxbarı" məcmuəsinin redaktoru (Tiflis, 1916) Borçalı qəzasında komissar (1917), Gürcüstan Parlamentin üzvü (1918-1919), Dağıstanda və Ermənistanda səfir (1919-1920) vəzifələrində çalışmış, bədii yaradıcılığını davam etdirmişdir.

Sovet hakimiyyəti illəri Əbdürrəhim bəy Haqverdiyevin tərcümeyi-halının məsuliyyətli bir mərhələsini təşkil edir. Bu dövrdə o, həm pedaqoji fəaliyyətlə və həm də teatr sahəsində çalışmış, ədəbiyyat və mədəniyyətin inkişafı yollarında yorulmadan xidmət göstərmişdir. Əbdürrəhim bəy Haqverdiyev 1921-1931-ci illərdə Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan dərs demişdir. Azərbaycan Tədqiq və Tətöbbə Cəmiyyətinə və Yeni Əlifba Komitəsinə rəhbərlik etmişdir. Bundan başqa ədib 1929-cu ildə Azərbaycan yazıçılarının Gürcüstan səfərinin rəhbəri olmuşdur. O, 1932-ci ildə yaradılmış Azərbaycan Şura Yazıçıları İttifaqının məsul katibi seçilmişdir.

[1] Cəlil Məmmədquluzadə. Məqalələr və xatirələr Bakı, "Elm", 1967, səh.277.

Bədii yaradıcılığını davam etdirən Əbdürrəhim bəy Haqverdiyev sovet hakimiyyəti dövründə "Ağac kölgəsində" (1921), "Ədalət qapıları" (1926), "Köhnə dudman" (1927), "Yaddaş Koroğlu" (1932) pyeslərini və bir çox hekayələrini yazmış, əsərləri ölkə teatrlarında böyük uğurla tamaşaya qoyulmuşdur.

Əbdürrəhim bəy Haqverdiyevin xidmətləri yüksək qiymətləndirilmişdir. Böyük ədibin ədəbi fəaliyyətinin 30 illiyinə həsr olunmuş təntənəli gecə təşkil olunmuş (1922), o, Rusiya Elmlər Akademiyası Diyarşünaslıq Bürosunun üzvü seçilmiş (1924), Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür (1928).

Görkəmli yazıçı və ictimai xadim Əbdürrəhim bəy Haqverdiyev 11 dekabr 1932-ci il tarixində Bakı şəhərində vəfat etmişdir.

Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan Əbdürrəhim bəy Haqverdiyev bədii nəsr, dramaturgiya və publisistika sahələrində uzun illər yorulmadan xidmət göstərmişdir. O, Azərbaycan realist-satirik ədəbiyyatının əsas yaradıcılarından biri olmuş, tənqidi realizm ədəbi cərəyanını təmsil etmişdir. Böyük ədib "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas simalarından biri idi.

Əbdürrəhim bəy Haqverdiyev bədii yaradıcılığa dramaturgiya ilə başlamışdır. Mirzə Fətəli Axundzadədən sonra Azərbaycan dramaturgiyasının əsas yaradıcılarından biri olan Əbdürrəhim bəy Haqverdiyev milli dram sənətimizi yeni ideya-sənətkarlıq xüsusiyyətləri ilə zənginləşdirmişdir. Əvvəla, Əbdürrəhim bəy Haqverdiyev ustadı Mirzə Fətəli Axundovdan fərqli olaraq komediya deyil, daha çox dram və faciə janrlarında bənzərsiz səhnə əsərləri yazmışdır. İlk dram yaradıcılığına 1883-cü ildə Şuşada Yusif bəy Məlikhaquəzərovun məktəbində təhsil alarkən "Hacı Daşdəmir" adlı bir komediya ilə başlasa da, sonralar o, əsasən dram və faciə janrlarında dramatik əsərlər yazmağa üstünlük vermişdir.

Mirzə Fətəli Axundzadə Azərbaycan ədəbiyyatında komediya, Cəlil Məmmədquluzadə tragikomediya, Hüseyn Cavid mənzum faciə janrlarının baniləri olduqları kimi, Əbdürrəhim bəy Haqverdiyev də dram və faciə janrlarının əsas yaradıcılarından-

dır. Ədib özünün yazdığı tərcümeyi-halında 1891-ci ildə Tiflis gimnaziyasının şagirdi ikən yazdığı "Nahaq qan" əsərini dram adlandırmışdır. Onun orijinal bədii dühasının işığında yaranmış "Yeyəsən qaz ətini, görəsən ləzzətini","Ədalət qapıları","Köhnə dudman","Yoldaş Koroğlu" və başqa əsərləri dram janrının yaddaqalan nümunələridir. Onun dram əsərləri komediya ilə faciə arasında olub, yaşadığı dövrü üçün səciyyəvi hadisələrin və insan talelərinin canlandırılmasına həsr edilmişdir. O, Azərbaycan cəmiyyətindəki zəmanədən geridə qalan həyat tərzini tənqid etmiş, yeniləşmə meyllərinin zəruriliyini diqqət mərkəzinə çəkmişdir. Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyası üçün səciyyəvi olan dilə-məişət mövzusu əslində mövcud Azərbaycan cəmiyyətinin simasını müəyyən edən hadisələri özündə cəmləşdirirdi. Eyni zamanda, ədibin dram əsərlərinin əsas iştirakçıları da komik deyil, dramatik obrazlardan ibarətdir. Mirzə Fətəli Axundzadənin komediyalarında gülüş hədəfi olan obrazlar Əbdürrəhim bəy Haqverdiyevin dramlarında həyatın gerçək problemlərini yaşayan surətlərdir. Avamlıq, cəhalət, ictimai-mədəni gerilik, savadsızlıq, köhnəlmiş müsəlman adətlərinin tənqidi Əbdürrəhim bəy Haqverdiyevin əsas hədəfi olan mövzulardır. Ayrı-ayrı dram əsərlərindəki Hacı Mehdi ("Yeyəsən qaz ətini, görəsən ləzzətini"), Pərviz xan ("Köhnə dudman"), Rizvan ("Ədalət qapıları"), Mustafa bəy ("Ağac kölgəsində"), Molla Kazım ("Vaveyla"), Salman ("Yoldaş Koroğlu") obrazları hərtərəfli surətdə işlənmiş kamil surətlər və hər biri özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə seçilən xarakterlərdir. Təbiilik, daşıdığı sosial funksiyaya uyğun davranış, obrazların danışıqlarındakı həyatilik Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyasının fərdi simasını müəyyən edir. Yazıçının dram əsərlərində bir-birini təkrar edən obrazlar yoxdur. Əbdürrəhim bəy Haqverdiyev bədii nəsrində olduğu kimi, dram əsərlərində də təbii, aydın və fərqli xarakterlər ustası kimi çıxış edir.

Məlum olduğu kimi, Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatında faciə janrının da əsas yaradıcılarından biridir.

Onun 1896-cı ildə yazdığı "Dağılan tifaq" faciəsi Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsindən sonra ədəbiyyatımızda bu janrda qələmə alınmış ikinci faciə əsəridir. Yeri gəlmişkən deyək ki, Nəcəf bəy Vəzirov hələ 1895-ci ildən üzərində işlədiyi faciə əsərini "Çəkmə, çəkə bilməzsən, bərkdi fələyin yayı" adlandırmış və təsadüfən bir yerdə Tiflisdən Bakıya gələrkən faciənin əlyazmasını qatarda qarşılaşdığı Əbdürrəhim bəyə oxumuşdur. Onun təklifi ilə Nəcəf bəy Vəzirov əsərini "Müsibəti-Fəxrəddin" adlandırmışdır.[2]

"Dağılan tifaq" əsəri XIX əsrin sonlarına doğru Azərbaycanda mülkədar həyatında baş verən iflasauğrama proseslərini əks etdirir. Dramaturq tipik mülkədar obrazı olan Nəcəf bəyin simasında bu təbəqənin işrətəuyma və israfçılıq sayəsində artıq çökməkdə olduğunu göstərir. Fikrimizcə, mülkədar həyatının dağılma prosesinin başlanmasının əsl səbəblərindən biri də Nəcəf bəy kimi mal-mülk və sərvət sahiblərinin elm və təhsildən malik olmamalarıdır. XIX əsrin sonlarında dünyada və ölkədə baş verən yeniləşmə meylləri, cəmiyyət həyatının dəyişməsi prosesləri ilə hələ də köhnə qaydalarla yaşayan və idarə edən mülkədarlığın həyat tərzi və iş üsulundakı təzad təkcə Nəcəf bəyin deyil, bütövlükdə bu mülkədar-kəndli idarə üsulunun məhvə məhkumluğunu qaçılmaz bir hala gətirmişdir. "Dağılan tifaq" faciəsində mülkədarlığın həyatındakı həmin çökmə prosesləri bütün təbiiliyi ilə təsvir edilmişdir. Beləliklə, "Dağılan tifaq" iflasa uğramış, çökməkdə olan Azərbaycan mülkədarlığının faciəsini əks etdirən əsər kimi meydana çıxmışdır. Əbdürrəhim bəy Haqverdiyevin həyatının Peterburq dövründə yazılmış "Dağılan tifaq" faciəsi o zaman həmin şəhərdə yaşamış azərbaycanlı sahibkar Mirzə Maqsudovun maliyyə dəstəyi ilə nəşr edilmişdir. "Dağılan tifaq" faciəsi uzun müddət Azərbaycan teatrlarının repertuarında geniş yer tutmuşdur.

Əbdürrəhim bəy Haqverdiyevin 1900-cü ildə yazdığı "Bəxt-

---

[2] Bax: İ.Həbibbəyli. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, Bakı, "Nurlan", 2004, səh.47

siz cavan" faciəsi mövzu baxımdan "Dağılan tifaq"dan sonrakı prosesləri əhatə edir. Əgər "Dağılan tifaq"da mülkədar həyatının dağılmağa başlaması o idarəetmə üsullarındakı köhnəliklə, var-dövlətdən başı gicəllənmiş sərvət sahibləri ilə yeniləşmə meylləri arasındakı uyğunsuzluq, maarifdən uzaq qalmış varlı təbəqənin düzgün çıxış yolları tapa bilməməsi kimi təqdim olunmuşdursa, "Bəxtsiz cavan" faciəsində "daxildən çökmə" proseslərini açıq şəkildə köhnəliklə yenilik arasındakı konflikt əvəz etmişdir. Əsərdə Hacı Səməd ağa artıq köhnəlmiş idarə üsulunun, Fərhad isə yenicə ictimai həyat meydanına çıxmış Azərbaycan maarifçi qüvvələrinin dövrünə görə ən səciyyəvi cəhətlərini özlərində əks etdirirlər. Hacı Səməd ağaya görə "rəiyyət nə qədər avam olsa, bir elə bəy üçün məsləhətdir. Əgər bunlara biz elm oxutsaq gərək gedib dilənək. Hərəsi gedib başına bir şapka taxıb, deyəcək ki, mən abrozovannıyam... Ondan sonra hünərin var onnan danış"[1]. Hüquq təhsili almış Fərhad isə bu qənaətdədir ki, "öz alnının təri ilə çörək qazanan heyvan deyil, bəlkə xalis insandır... Hər kəs öz hüququnu tanısa yaxşıdır"[2]. Yeni düşüncəyə malik olmasına baxmayaraq, Fərhad Hacı Səməd ağaların cəbhəsini dağıda bilməyib, məğlub olur. Lakin Fərhadların cismən dünyalarını dəyişmələri onların mənəvi qələbəsi kimi səslənir. Cəmiyyətin sonrakı dialektik inkişafı Fərhad kimi azlıqda qalan yenilikçi ayıq, xalqına bağlı, onun gələcəyini xoşbəxt görmək istəyində olanların arzularının həyata keçirilməsinə yol açdı. Göründüyü kimi, Əbdürrəhim bəy Haqverdiyevin faciələri tənqid hədəfləri baxımından Mirzə Fətəli Axundzadənin komediyalarına, cəmiyyətə təlqin etdikləri ideyaları etibarilə isə Cəlil Məmmədquluzadənin tragikomediyalarına yaxındır. Əbdürrəhim bəy Haqverdiyevin Azərbaycan dramaturgiyasındakı özünəməxsus yeri Mirzə Fətəli Axundzadə komediyaları ilə Cəlil Məmmədquluzadənin tragikomediyaları arasında

[1] Əbdürrəhm bəy Haqverdiyev. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı, Azərnəşr, 1971, səh. 95.
[2] Yenə orada, səh. 61-62.

olub, heç kəsi təkrar etmədən, fərqli mövzuları və obrazları təqdim etməklə müəyyən olunur. Doğrudur, "Bəxtsiz cavan"dakı Fərhad obrazı funksiyalarına görə Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasındakı İskəndər obrazına yaxındır. Lakin "Bəxtsiz cavan"ın 1900-cü ildə yazıldığını nəzərə alsaq, Fərhad Azərbaycan ədəbiyyatındakı İskəndərlərin başlanğıcıdır.

Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" dramı Azərbaycan ədəbiyyatında ilk masal-dramdır. Əslində Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povesti və Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" masal dramı ədəbiyyatımızda magik realizmin dərin köklərə malik olduğunu göstərir. Əsərdə şərin simvolu olan İblis obrazına müraciət olunması, hadisələrin gedişatını tənzimləmək üçün cadugərlikdən istifadə olunması, dərvişliyə müraciət "Pəri cadu"nun masal-dram janrının ən yaxşı xüsusiyyətlərini özündə əks etdirdiyini göstərir. Bu, təkcə Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığında deyil, ümumən XX əsrin əvvəllərində mülkədar-kəndli, varlı-yoxsul təbəqələrin həyatının təsvir edilməsi çərçivəsindən çıxıb, sadə adi həyat adamlarının talelərini əks etdirən bədii əsər kimi də mühüm əhəmiyyətə malikdir. Bu həm də o deməkdir ki, Azərbaycan tənqidi realizmi üçün xarakterik olan "kiçik adam"ların talelərinin ədəbiyyatını əsas mövzusuna çevrilməsində də Əbdürrəhim bəy Haqverdiyevin özünəməxsus xidmətləri vardır.

Bundan başqa, Əbdürrəhim bəy Haqverdiyev Mirzə Fətəli Axundzadənin anadan olmasının 100 illik yubileyi münasibəti ilə yazdığı "Xəyalat" pyesi ilə janr baxımından Azərbaycan dramaturgiyasını zənginləşdirmişdir. Bu, ədəbiyyatımızın tarixində Mirzə Fətəli Axundzadənin və onun obrazlarının simasında ayrıca bir yazıçının və onun əsas qəhrəmanlarının iştirakı ilə yazılmış nadir dram əsərlərindən biridir. Hələlik xalq yazıçısı Anarın Cəlil Məmmədquluzadə və onun müasirlərinin və qəhrəmanlarının iştirakı ilə yazdığı "Sizi deyib gəlmişəm" dramından başqa belə xüsusiyyətlərə malik olan ikinci bir əsərə rast gəlinmir. "Xəyalat"

əsəri Mirzə Fətəli Axundovun həyatı və yaradıcılığı, mühiti və müasirləri haqqında mənbələrdən biri kimi də qəbul olunur.

Əlbəttə, Əbdürrəhim bəy Haqverdiyevi Azərbaycan ədəbiyyatında ən çox məşhurlaşdıran onun nəsr əsərləridir.

Azərbaycan ədəbiyyatında tarixi dram janrının inkişafında da Əbdürrəhim bəy Haqverdiyevin xidmətləri vardır. Ədibin "Ağa Məhəmməd şah Qacar" tarixi dramın bu janrın ən mükəmməl nümunələrindən biri hesab olunur. Əbdürrəhim bəy Haqverdiyevin bu dram əsərini yazmaq üçün Rusiyanın Peterburq və Həştərxan arxivlərində və İranda axtarışlar aparır, real tarixi faktlarla tanış olur. "Ağa Məhəmməd şah Qacar" pyesi bu mövzuda yazılmış əsərlər içərisində tarixi gerçəkliyə daha çox uyğun olan bədii əsər hesab edilir. Bu dram əsərində Ağa Məhəmməd şah Qacarın Azərbaycana hərbi yürüşləri, şəxsiyyəti və xarakteri özünün bədii əksini tapmışdır.

Bundan başqa, XIX əsrin axırlarına yaxın ilk nümunələri yaradılmış vedovil janrı Əbdürrəhim Haqverdiyevin həmin janrda yazdığı yığcam pyeslərlə ədəbiyyatda mövqeyini daha da möhkəmləndirmişdir. Müxtəlif illərdə yazılmış "Millət dostları" (1905), "Kimdir müqəssir" (1909), "Ac həriflər" (1911), "Qırmızı qara" (1921), "Padşahın məhəbbəti" (1921), "Qoca tarzən" (1922), "Səhnə qurbanı" (1926), "Qadınlar bayramı" (1928), "Sağsağan" (1931) kiçik pyesləri miniatür dramın təkamülünə öz təsirini göstərmişdir.

Bədii yaradıcılığa dram əsərləri yazmaqla başlayan və dramaturgiyada iz qoya bilən Əbdürrəhim bəy Haqverdiyev hekayə və povestləri ilə şöhrət qazanmışdır. Azərbaycan oxucusu onu ilk növbədə dadlı-duzlu hekayələrin, məsələn, "Şeyx Şəban","Mirzə Səfər" kimi yadda qalan və təsirli hekayələrin müəllifi kimi tanıyır. Obrazlı şəkildə desək, "Bomba" hekayəsi 2 iyun 1908-ci il tarixdə "Molla Nəsrəddin" jurnalında çap olunarkən ədəbi-ictimai mühitdə bomba kimi partlamışdır. Cəlil Məmmədquluzadə ilə birlikdə Əbdürrəhim bəy Haqverdiyev də Azərbaycan ədəbiyya-

tında kiçik hekayə janrının formalaşdırılması və inkişaf etdirilməsi yollarında əzmlə çalışmışdır. Əbdürrəhim bəy Haqverdiyevin ilk hekayələri olan "Ayın şahidliyi","Ata və oğul" 1906-cı ilin mart ayında "Həyat" qəzetində çap olunmuşdur. Tipik realist hekayələr olan bu bədii nəsr nümunələrində milli-məişət tərzinin təbii təzahürləri təsvir edilmişdir. Yazıçı "Ata və oğul" hekayəsinin adında ifadə olunduğu kimi, heç də ənənəvi "atalar və oğullar" problemini deyil, əksinə övladların qayğılarına diqqət göstərən atalarla müqayisədə ailənin imkanlarından əyləncə və avaraçılıq üçün istifadə etməyə meyilli olan oğullar təqdim edərək, cəmiyyətin nəzərlərini məsələyə yönəltmək istəmişdir. "Ayın şahidliyi" hekayəsində realist və romantik təsvirlər vasitəsilə nahaq qanın yerdə qalmaması motivi üstündə qurulan ədalətin təsvir edilməsi və ləkəsiz yaşamaq qayəsi diqqət mərkəzinə çəkilmişdir.

"Molla Nəsrəddin" jurnalı çap olunmağa başladıqdan sonra Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığındakı, xüsusən də hekayələrindəki tənqid notları tədricən satirik-yumoristik təsvirlərlə əvəz olunmuşdur. XIX əsrin doxsanıncı illərindən maarifçi realist yazıçı kimi çıxış edən sənətkarın əsərlərində cəmiyyət hadisələrinə münasibətdə didaktikadan satiraya doğru dönüş baş vermişdir. "Dağılan tifaq" faciəsinin finalında tərbiyəvi tezis kimi verilmiş "Ey əziz, bir baxın, dünya bir ibrətxanədir, axırın fikir etməyən aqil deyil, divanədir" nəsihətamiz misraların yerini Əbdürrəhim bəy Haqverdiyevin hekayələrindəki az qala atalar sözünə çevrilmiş "Həsən adamın qohumusan, gəl, min boynuma" tipli satirik bədii ümumiləşdirmələr tutmuşdur.

Nəsr əsərlərindəki satiranın xarakterinə görə də Əbdürrəhim bəy Haqverdiyevin mövqeyi digər mollanəsrəddinçilərlə müqayisədə fərqlənir. Ümumiyyətlə, "Molla Nəsrəddin" gülüşü əsasən şiddətli, təsvirli ifşaedici satiradan ibarətdir. Mollanəsrəddinçilər köhnəliyin bütün təzahürlərinə qarşı mübarizə apardıqları üçün və hətta ölkədəki çar üsul-idarəsinin və müstəkəmləçilik siyasətinin aradan qaldırılmasına çalışdıqlarına görə onların əsərlərində əsa-

sən ciddi, ifşaedici gülüş, yəni satira aparıcılıq təşkil edir. Cəlil Məmmədquluzadənin "Rişədən başlamalı" çağırışı "Molla Nəsrəddin"in mübarizəsinin xarakterini və mollanəsrəddinçi satiranın mahiyyətini aydın surətdə ifadə edir. Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar və başqalarının yaradıcılığında şiddətli gülüş-satira üstün mövqeyə malikdir. Lakin mollanəsrəddinçi gülüş üçün həm də satirik-yumoristik gülüş də xarakterikdir ki, Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı bədii gülüşün məhz bu formasından istifadə edilməsi ilə səciyyələnir. "Molla Nəsrəddin" ədəbi məktəbində Əbdürrəhim bəy Haqverdiyev əsasən yumor ustası kimi tanınır. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı Mir Cəlal Paşayev də Əbdürrəhim bəy Haqverdiyevin hekayələrinin fərqli cəhətinin onun yumorunda olduğunu xüsusi olaraq qeyd etmişdir: "Əbdürrəhim bəy Haqverdiyevin hekayələri sənətkarlıq cəhətdən bitkin və mükəmməldir. Ədib canlı, iti müşahidəsi sayəsində, obyektiv təsvir üsulu ilə fakta, hadisəyə heç bir şey əlavə etmədən, bəhs etdiyi məsələ haqqında fikir və mülahizələrini bildirmədən yazır… Əbdürrəhim bəy Haqverdiyevin nəsrində təbii, şirin, məzmunlu bir yumor var… Real hadisə və faktlara əsaslanan, oxucunun diqqətini zəruri səhnələrə cəlb edən bu mənalı gülüşün təravət və incəliyi haqqında izahata ehtiyac yoxdur. Bəzən belə incəlikdə deyilən ikicə kəlmə söz tam bir səhnə verir, bir adamı tanıdır".[3]

Bununla belə, Əbdürrəhim bəy Haqverdiyevin nəsr yaradıcılığını iki istiqamətə ayırmaq olar:

1. Satirik-yumoristik əsərlər
2. Yumoristik hekayələr.

Satirik-yumoristik əsərlər qrupuna Əbdürrəhim bəy Haqverdiyevin "Şeyx Şəban", "Mirzə Səfər" kimi hekayələrini, "Marallarım" silsiləsini və "Xortdanın cəhənnəm məktubları" povestini

[3] Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, "Maarif", 1982, səh.175

aid etmək olar. Bu hekayələrdə və povestdə həm hadisələrə və tiplərə sərt tənqidi münasibət ifadə olunmuş həm də incə yumor vasitəsi ilə islahedici mövqe nümayiş etdirilmişdir. Məsələn, məşhur "Mirzə Səfər" hekayəsində Əbdürrəhim bəy Haqverdiyev həm satiradan, həm də yumordan istifadə etməyin mükəmməl bir nümunəsini nümayiş etdirir. Belə ki, yazıçı hekayədəki Həsən ağa ilə əlaqədar məqamlardan danışanda daha çox satirik mövqe tutduğu halda hekayədəki mütərcim Mirzə Səfəri və saatsaz Zeynalı yumoristik planda təqdim edir. Çünki Əbdürrəhim bəy Haqverdiyevin əsas məqsədi bir nəfəri – Mirzə Səfəri və ya saatsız Zeynalı deyil, həyatdakı qoluzorluğu, yekəxançılığı, tutduğu mövqedən sui-istifadə halları ilə haqsızlıq törədənləri tənqid etmək olduğu üçün satirik tipə – Həsən ağaya ciddi tənqidi münasibət bəslədiyi üçün onu ifşa etməyə çalışır. Yazıçının təqdimatında Cəmiyyəti-xeyriyyənin sədri olan Həsənağa özündən müştəbeh, başqalarına yuxarıdan aşağı baxmağı həyat normasına çevirən, ətrafındakıların ona təzim edilmələrini zəruri hesab edən bir məmur kimi oxuculara çatdırılır. Müəllif hər məqamda onun insana yaraşmayan mənfi hərəkətlərini təsvir etməklə Həsən ağanı gülüş hədəfinə çevirməyə çalışır. Əbdürrəhim bəy Haqverdiyev satirik gülüşün bütün imkanlarından istifadə etməklə onu ifşa edir.

Lakin yazıçının mütərcim Mirzə Səfərə və saatsaz Zeynala münasibətində şiddətli tənqid və ifşa deyil, yumşaq, islahedici bir yanaşma vardır. O, bütün vasitələrlə Mirzə Səfəri ayılmağa, cəmiyyət hadisələrinə daha ayıq baxmağa çalışır. Çünki Mirzə Səfərdə insanlıq üçün zəruri olan ən vacib əxlaqi-mənəvi keyfiyyətlərin hamısı vardır. O, cəmiyyəti-xeyriyyə sədri olan Həsən ağanın ayağına getmədiyi üçün haqsız yerə "cəzalandırılmışdır". Təzim etmədiyi üçün Mirzə Səfərin uşaqlarını məktəbdən çıxartdırması Həsən ağanın qoluzorluğun və yekəxanlığını göstərmək üçün yaxşı tərəfindən düşünülmüş uğurlu bədii detaldır. Lakin ətrafdakı yaxın adamların onu məzəmmət etməsinə baxmayaraq, Mirzə Səfərin Həsən ağanın yanına gedib üzr istəməməsi bu kiçik

məmurun böyük mənəviyyat sahibi olduğunu göstərir. Mirzə Səfərin "acından ölməyə razı olaram, …amma gedib Həsən ağa kimi adama yalvarmaram" - kimi sözləri bu sadə adamın yüksək mənəviyyatından xəbər verir. Mirzə Səfərin uşaqlarına bir ata kimi tövsiyələrində də insani dəyərlərin uca tutulması onun sabit bir mövqeyə malik olduğunu nümayiş etdirir. Bütün bunlara görə Əbdürrəhim bəy Haqverdiyev Mirzə Səfəri incə yumor vasitəsilə həm də ayıq olmağa, haqqını tələb etməkdən çəkinməməyə çağırır. Burada yumor Mirzə Səfərin xarakterindəki həddindən artıq nəzakətli olmaq kimi natamamlıq kompleksini tənqid etməyə ünvanlanmışdır.

"Şeyx Şəban" hekayəsində də satirik və yumoristik gülüş birbirini tamamlayır. Daxili dialoqdan istifadə yolu ilə Şeyx Şəbanın mənfi keyfiyyətlərini diqqət mərkəzinə çəkməsi və ifşa etməsi Əbdürrəhim bəy Haqverdiyevin orijinal sənətkarlıq priyomu sayılmağa layiqdir. Bu mənada aşağıdakı daxili dialoq Azərbaycan ədəbiyyatında təkrarı olmayan sənətkarlıq üsuludur:

- "Toylarda hamıdan yaxşı oynayan kim idi?

- Başmaqçı oğlu Şeyx Şəban!

- Qumarbazlar arasında ürəkli aşıq atan kim idi?

- Başmaqçı oğlu Şeyx Şəban!

- …Hər il məhərrəm ayında məhəllə dəstəsinin başını çəkən kim idi?

- Başmaqçı oğlu Şeyx Şəban!

Bağışlayın, mən Sizin gözləriniz də sual işarəsi görürəm. Guya siz sual edirsiniz ki: "aya, bu cavan ki, avara idi, bəs bu haradan pul qazanırdı ki, toylarda, qumarda, səyahətlərdə xərc edirdi?"

Mən də sizdən sual edirəm:

- Bəs Xoca Sərkisin ki, evi yarıldı, yüz put ipəyi getdi, o inəyin pulu necə oldu?

Hacı Qafarın …on beş min manatlıq malı getdi, o malın pulu kimin cibinə doldu?

Xülasə, nə ərz edim, mədaxil yolu bir deyildi, beş deyildi”[4].

Göründüyü kimi, Əbdürrəhim bəy Haqverdiyev nəinki satirik tipi orijinal bədii vasitələrlə ifşa etmiş, hətta onun bənzərsiz və eybəcər mənəviyyatını açıb göstərmiş və portretini çəkmişdir.

“Xortdanın cəhənnəm məktubları” povestində də satira və yumordan paralel olaraq istifadə edilmişdir. Azərbaycan realist-satirik ədəbiyyatında xüsusi yer tutan bu nəsr əsərində Əbdürrəhim bəy Haqverdiyev Fazil Dərbəndi, Hacı Mirzə Əhməd ağa kimi zülümkar, müftəxor, həris insanları sərt satira atəşinə tutmuş, bəd əməllərini açıb göstərmiş və onları ifşa etmişdir. Bu tiplərə münasibətdə yazıçının mövqeyi qəti və barışmazdır.

Bunun əksinə olaraq, yazıçı sadə və zəhmətkeş insanların nümayəndəsi olan Fərman və Gövhərtac kimi saf-qəlbli insanların ürək ağrısı ilə təsvir etmiş, onların çətin həyatı və məişətini göz özünə gətirmiş, dözülməz vəziyyətləri oxuculara çatdırmışdır. Fərman və Gövhərtacın məhəbbətini təsvir edərkən müəllifin onlara bəslədiyi rəğbət hissi aşkar şəkildə müşahidə olunur. Lakin Əbdürrəhim bəy Haqverdiyev bu müsbət insanları öz haqlarını dərindən başa düşməməkdə məzəmmət edir, yol açmağa çalışır. Belə məqamlarda yazıçının gülüşü yumor xarakteri daşıyır və islahedici xarakterə malik olur.

Məşhur “Bomba” hekayəsi də Əbdürrəhim bəyin satirik-yumoristik hekayələrin sırasına daxil olan orijinal bədii nümunədir. “Bomba” hekayəsi Azərbaycan hekayəçiliyinin şedevridir. Bu hekayədə yazıçının dövrün hadisələrinə, ictimai proseslərin təsvirinə münasibətləri satirik xarakter daşıyır. Ümumiyyətlə, bütün mollanəsrəddinçilər kimi, Əbdürrəhim bəy Haqverdiyev də mövcud ictimai quruluşa, müstəmləkəçilik zülmünə qarşı mübarizədə sərt satirik mövqe tutmuşlar. Əbdürrəhim bəy Haqverdiyev də daxil olmaqla onların hamısı, Azərbaycan xalqının zülm və əsarətdən xilas olması və milli istiqlal istiqlala qovuşması uğrun-

[4] Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri, 2 cilddə, I cild, Bakı, Azərnəşr, 1971, səh.72.

da dönmədən mübarizə aparmış, bu yolda mane olan bütün məsələlərə qarşı münasibətdə satiranın bütün gücündən bacarıqla istifadə etmişlər.

Ancaq insanlara münasibətdə mollanəsrəddinçilər qəddarlığı, zülmkarlığı, haqsızlığı təmsil edən yuxarı zümrə nümayəndələrini kəskin tənqid və satiraya məruz qoymuş, sadə, zəhmətkeş insanları müdafiə etmiş, onları oyatmağa, ayılmağa səy göstərmişlər. “Bomba” hekayəsindəki Kərbəlayi Zal da hakim idarə üsuluna aid sistemdə çalışsa da, haqq-hüquq sahibi olmayıb, buyruq yerinə yetirən zümrəyə daxil olduğu üçün satirik vasitələrlə deyil, yumoristik tərzdə təqdim olunmuşdur. Yazıçı onun düşdüyü gülməli vəziyyəti incə yumorla təsvir etmişdir. “Bomba” hekayəsi Azərbaycan ədəbiyyatında kiçik hekayənin mükəmməl bir nümunəsidir.

“Molla Nəsrəddin” jurnalında çap olunmuş “Marallarım” silsiləsi də satirik-yumoristik əsər kimi mühüm əhəmiyyətə malikdir.

Əbdürrəhim bəy Haqverdiyevin hekayələrindən böyük bir qismi yumoristik əsərlərdir. Bu əsərlərdə oxucu incə, yumşaq, islahedici, tərbiyəedici gülüşün şahidi olur. Yazıçı yumor vasitəsilə öz qəhrəmanlarını düşündürməyə, düşdükləri çətin vəziyyətdən çıxış yolları tapması üçün onlara bələdçilik etməyə çalışmışdır. Bu qəbildən olan “Diş ağrısı”, ”Acından təbib”, ”Dəcəlabad”, ”Şəbih”, ”Qiraət”, ”Tənqid” və sair kimi hekayələrdə məharətlə istifadə olunmuş incə yumor ”kiçik janrın” duzlu-məzəli, oxunaqlı və düşündürücü nümunələrinin meydana çıxması ilə nəticələnmişdir. Əbdürrəhim bəy Haqverdiyev ədəbiyyatda böyük yumor ustası olduğunu isbat etmişdir. Mollanəsrəddinçi ədəbiyyatda, tənqidi realizm ədəbi cərəyanında Əbdürrəhim bəy Haqverdiyevin fərdi yazıçı siması, fərqli yeri onun əsl yumor yaradıcısı olması ilə müəyyən edirlər. Bədii yaradıcılığı ilə yanaşı Əbdürrəhim bəy Haqverdiyevin publisistik əsərləri də satirik-yumoristik publisistikanın ən yaxşı nümunəsidir.

Ədəbi-ictimai fikrin digər sahələrində də Əbdürrəhim bəy

Haqverdiyevin mühüm xidmətləri vardır. Böyük ədibin ilk dəfə olaraq yazdığı Azərbaycan teatrının tarixi milli mədəniyyət tariximizin bu qoluna həsr edilmiş əhəmiyyətli elmi-ədəbi əsəridir. Əbdürrəhim bəy Haqverdiyevin ədəbi-tənqidi məqalələrində klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin xidmətləri, xüsusən müasiri olduğu yazıçılarının yaradıcılığı obyektiv mövqedən və peşəkarlıqla təhlil edilib qiymətləndirilmişdir.

Ümumiyyətlə, Əbdürrəhim bəy Haqverdiyev çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişaf yollarında böyük xidmətləri olmuş görkəmli yazıçı və ictimai xadimdir. Onun adı ilə bağlı olan ədəbi ənənələrin ədəbiyyatımızın sonrakı inkişafında böyük rolu olmuşdur.

**İsa Həbibbəyli,**
***AMEA-nın vitse-prezidenti, akademik***

# Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığının əsas tarixləri

***Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 1870-ci il may ayının 17-də Şuşa şəhəri yaxınlığında Ağbulaq kəndində anadan olmuşdur.***

| | |
|---|---|
| **1880** | – Ailəsi Ağbulaq kəndindən Şuşaya köçmüşdür;<br>– İbtidai təhsilinə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində başlamışdır. |
| **1881** | – Şuşa Realnı məktəbində təhsilini davam etdirmişdir. |
| **1884** | – M.F.Axundzadənin təsiri ilə ilk dəfə “Hacı Daşdəmir” adlı kiçik pyesini yazmışdır. |
| **1890** | – Şuşa Realnı məktəbinin altıncı sinfini bitirmişdir;<br>– Tiflis Realnı məktəbinin sonuncu sinfinə daxil olmuşdur.<br>– “Nahaq qan” faciəsini yazmışdır. |
| **1891** | – Tiflisdə Realnı məktəbini bitirmişdir;<br>– Avqust ayında ali təhsil almaq üçün Peterburqa getmişdir;<br>– Peterburqda Yol Mühəndisləri İnstitutuna qəbul edilmişdir. |
| **1892** | – Peterburqda “Yeyərsən qaz ətini, görərsən ləzzətini” adlı ilk orijinal komediyasını yazmışdır. |

**1895** – İyul ayında Tiflisdən Bakıya gedərkən qatarda Nəcəf bəy Vəzirovla qarşılaşmış, onun "Çəkmə çəkə bilməzsən, bərkdi fələyin yayı" faciəsinin əlyazmasını oxumuş və əsərin "Musibəti-Fəxrəddin" adlandırılmasını təklif etmişdir.

**1896** – Azərbaycan klassik dramaturgiyasının ən yaxşı nümunələrindən sayılan "Dağılan tifaq" əsərini bitirmişdir;
– Azad dinləyici kimi Peterburq Universitetinin Şərq fakültəsində təhsilini davam etdirmişdir.

**1897** – Avqust ayında Şuşada onun rejissorluğu ilə "Məcnun Leylinin qəbri üzərində" musiqili səhnəciyi tamaşaya qoyulmuşdur
– Peterburqda "İslam xeyriyyə Cəmiyyəti" yaratmışdır.

**1899** – "Dağılan tifaq" dramatik faciəsini ilk dəfə Peterburqda nəşr etdirmişdir;
– Peterburqda Yol Mühəndisləri İnstitutunu bitirmişdir;
– Ali təhsil aldıqdan sonra Şuşaya qayıtmış, burada müəllimlik etmişdir.

**1899-1900** – Şuşada "Bəxtsiz cavan" faciəsini yazmışdır;

**1900** – "Bəxtsiz cavan" pyesi Şuşada tamaşaya qoyulmuşdur;
– Tükəzban xanımla ailə həyatı qurmuşdur.

**1901** – Rəhbərliyi ilə Şuşada "Xandəmirovun teatrı"nda ilk dəfə "Şərq konserti" təşkil edilmişdir;

– Şuşadan Bakıya gəlmişdir;
– İlk dəfə Bakıda "Xalq çalğı alətləri ansamblı"nı yaratmışdır;
– Bakıda "Müsəlman dram truppası"nı təşkil etmişdir;
– Mövzusu və süjeti xalq yaradıcılığından alınmış "Pəri cadu" əsərini bitirmişdir.

**1902** – 11 yanvarda Bakıda "Şərq konserti" təşkil edilmişdir.

**1904** – Bakıdan Şuşaya qayıtmışdır;
– Şuşa Şəhər İdarəsinə üzv seçilmişdir;

**1905** – "Millət dostları" adlı ilk mətbu əsəri çap olunmuşdur.

**1906** – Gəncə qəzasından Dövlət Dumasına üzv seçilmişdir;
– "Ata və Oğul", "Ayın şahidliyi" hekayələrini "Həyat" qəzetində dərc etdirmişdir.

**1907** – "Ağa Məhəmməd şah Qacar" adlı tarixi dram əsərini yazmışdır;
– "Ağa Məhəmməd şah Qacar" əsəri Bakıda səhnəyə qoyulmuşdur;
– "Molla Nəsrəddin" jurnalında "Ceyranəli", "Xortdan", "Həkim-Nuni-səğir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" imzaları ilə hekayə, felyeton və publisistik məqalələr çap etdirmişdir;
– V.Q.Korolenkonun "Qoca zəng çalan" əsərini tərcümə etmişdir.

| | |
|---|---|
| **1908** | – "Bomba" hekayəsini "Molla Nəsərddin" jurnalında çap etdirmişdir;<br>– Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasına dirijorluq etmiş və Azərbaycan mədəniyyət tarixinə ilk dirijor kimi daxil olmuşdur.<br>– Şekspirin "Hamlet", Şillerin "Xəyanət və Sevgi", "Soyğunçular", "Vilhelm Tell", Volterin "Sultan Osman" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. |
| **1909** | – İki məclisdən ibarət olan "Kimdir müqəssir" vodevilini yazmışdır;<br>– Çirikovun "Yəhudilər" adlı 4 məclisdən ibarət olan faciəsini tərcümə edərək Bakıda çap etdirmişdir. |
| **1909-1910** | – "Marallarım" ümumi başlığı altında yazdığı hekayələrinin ilk nümunələrini "Molla Nəsrəddin" jurnalında çap etdirmişdir;<br>– Xəzər Dəniz Gəmiçiliyi İdarəsində işləyib, Həştərxanda Nəriman Nərimanovla görüşmüşdür. |
| **1911** | – M.F.Axundovun anadan olmasının 100 illiyi münasibətilə "Xəyalat" avtobioqrafik pyesini yazmışdır.<br>– "Ac həriflər" pyesini yazmışdır. |
| **1912-1913** | – Ağdamda teatr qrupu yaratmış, burada müxtəlif əsərləri tamaşaya qoymuşdur;<br>– M.Ə.Sabirin vəfatının ildönümü ilə əlaqədar "Molla Nəsrəddin" jurnalında "İki il" məqaləsini çap etdirmişdir. |

| | |
|---|---|
| **1913, 24 may** | – "Səfa" Maarif Cəmiyyətinin sədri seçilmişdir. |
| **1914** | – Ağdamda "Şeyx Şəban" hekayəsini yazmışdır, əsəri ilk dəfə Cəlil Məmmədquluzadə və İbrahim Tahir üçün oxumuşdur. |
| **1915, noyabr** | – "Şeyx Şəban" hekayəsi "Açıq söz" qəzetində çap olunmuşdur. |
| **1916** | – Tiflisdə rus dilində çıxan "Şəhərlər İttifaqının Qafqaz şöbəsi əxbarı" adlı aylıq məcmuənin müdiri vəzifəsinə təyin olunmuşdur. |
| **1917** | – Fevral İnqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun Mərkəzi Şurasına üzv seçilmişdir;<br>– Mart ayında Borçalı qəzasının Şulaver qəsəbəsinin müvəkkili təyin olunmuşdur;<br>– "Röya" və "Həmşəri pasportu" hekayələrini yazmışdır. |
| **1918** | – "Mirzə Səfər" ("Şair") adlı hekayəsi ilk dəfə Tiflisdə "Tartan-partan" jurnalında çap edilmişdir. |
| **1920** | – Maarif Nazirliyində İncəsənət şöbəsinin müdiri vəzifəsində işləmişdir;<br>– Eyni zamanda Dövlət teatrlarında müfəttiş vəzifəsində çalışmışdır.<br>– "Pəri cadu", "Dağılan tifaq" və "Bəxtsiz cavan" pyeslərini tamaşaya qoymuşdur. |
| **1921-1931** | – Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuşdur. |

| | |
|---|---|
| **1922** | – "Padşahın məhəbbəti" əsərini yazmışdır;<br>– Azərbaycan Darülfününunda yerli komitə sədri işləmişdir. |
| **1923-1925** | – "Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti"-nin sədr müavini və sədri vəzifəsində işləmişdir. |
| **1924** | – Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir;<br>– Azərbaycan Dövlət Akademik Dram Teatrında "Pəri cadu" faciəsi rejissor Mirseyfəddin Kirmanşahlı tərəfindən tamaşaya qoyulmuşdur. |
| **1925** | – Hüseyn Ərəblinskiyə həsr etdiyi "Səhnə qurbanı" pyesini yazmışdır. |
| **1926** | – "Ağac kölgəsində" və "Vaveyla" pyeslərini yazmışdır. |
| **1927** | – "Köhnə Dudman" əsərini bitirmişdir;<br>– Ədəbi-ictimai fəaliyyətinin 35 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir;<br>– M.Alekseyeviçin "Bolşeviklər" romanını tərcümə edərək "Azərnəşr"də çap etdirmişdir. |
| **1928** | – Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür;<br>– "Qadınlar bayramı" pyesini yazmışdır.<br>– M.Qorki və A.P.Çexovdan etdiyi tərcümələri "İzergil qarı və qeyri-hekayələr" və "Dəhşətli gecə" adı ilə kitab halında çap etdirmişdir. |

**1929** – Azərbaycan yazıçılarının nümayəndə heyətinin başçısı kimi Gürcüstan və Ermənistanda ezamiyyətdə olmuşdur.

**1932** – Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdir;
– Azərbaycan Şura Yazıçıları cəmiyyətinin məsul katibi vəzifəsində çalışmışdır.
– "Yoldaş Koroğlu", "Çox gözəl", "Sağsağan" pyeslərini yazmışdır.
– Ədəbi və ictimai fəaliyyətinin 40 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir.

**1933** – May ayının 15-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Fəxri Fərmanla təltif edilmişdir;
– Dekabr ayının 11-də Bakıda vəfat etmiş və Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

**1936** – "Seçilmiş əsərləri" köhnə latın qrafikasında Mir Cəlalın redaktorluğu ilə "Azərnəşr"də çap olunmuşdur.

**1938** – "Pyeslər və hekayələr" kitabı köhnə latın qrafikasında "Azərnəşr"də çap olunmuşdur.

**1948** – İbtidai məktəb uşaqları üçün nəzərdə tutulmuş "Hekayələr və tərcümələr" kitabı "Uşaqgəncnəşr"də çap olunmuşdur.

**1950** – Kamran Məmmədovun "Əbdürrəhim bəy Haqverdiyev" adlı kitabı "Azərbaycanın görkəmli adamları" seriyasından Bakıda çap olunmuşdur.

**1951** – Orta və böyük yaşlı uşaqlar üçün nəzərdə tutulmuş "Hekayələr" kitabı "Uşaqgəncnəşr"də çap olunmuşdur.

**1956** – İki cildlik "Seçilmiş əsərləri" "Azərnəşr"də çap olunmuşdur.

**1963** – "Marallarım" başlıqlı hekayələri əsasında eyniadlı film çəkilmişdir.

**1964** – Respublika Kitab Palatası tərəfindən "Əbdürrəhim bəy Haqverdiyev" adlı biblioqrafiya tərtib edilmişdir.

**1968** – Azərbaycan SSR Nazirlər Sovetinin Fərmanı ilə Ağdam Teatrına Əbdürrəhim bəy Haqverdiyevin adı verilmişdir.

**1971** – İki cildlik "Seçilmiş əsərləri" "Azərnəşr"də çap olunmuşdur.

**1975** – İnqilab Kərimovun "Əbdürrəhim bəy Haqverdiyev və teatr" adlı kitabı Bakıda "Elm" nəşriyyatında çap olunmuşdur.

**1983** – "Mirzə Səfər", "Papaq" və "Bomba" hekayələrinin motivləri əsasında rejisor Cahangir Mehdiyev tərəfindən "Evlənmək istəyirəm" filmi çəkilmişdir.

**1988** – Təhsin Mütəllimovun "Əbdürrəhim bəy Haqverdiyevin poetikası" adlı kitabı "Yazıçı" nəşriyyatında çap olunmuşdur.

**1993** – Rejissor Ramiz Həsənoğlu Ə.Haqverdiyevin "Ac həriflər" əsəri əsasında eyniadlı film-tamaşa hazırlamışdır.

| | |
|---|---|
| **2005** | – Əsərləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. |
| **2012** | – Mehri Məmmədovanın nəşrə hazırladığı "Əbdürrəhim bəy Haqverdiyev arxivinin izahlı təsviri" kitab nəşr edilmişdir. |
| **2014** | – "Ac həriflər" adlı film-tamaşa rejissor Ramiz Həsənoğlu tərəfindən "Sabah" eksperimental yaradıcılıq emalatxanasında istehsal edilmişdir;<br>– Adına poçt markası hazırlanmışdır. |
| **2019, 7 may** | – Azərbaycan Respublikası Nazirlər Kabinetinin 211 nömrəli Qərarı ilə əsərləri dövlət varidatı elan edilmişdir. |
| **2020** | – 31 yanvarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır;<br>– Əbdürrəhim bəy Haqverdiyevin adı UNESKO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilmişdir.<br>– M.F.Axundov adına Milli Kitabxana tərəfindən "Əbdürrəhim bəy Haqverdiyev-150" adlı elektron məlumat bazası hazırlanmışdır.<br>– M.F.Axundov adına Milli Kitabxana tərəfindən "Əbdürrəhim bəy Haqverdiyev: daycest" tərtib olunmuşdur. |

– F.Köçərli adına Respublika Uşaq Kitabxanası “Böyük ədibin böyük yaradıcılığı” adlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait tərtib etmişdir.

– M.F.Axundov adına Milli Kitabxana tərəfindən “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından “Əbdürrəhim bəy Haqverdiyev” fundamental biblioqrafiyası tərtib olunaraq nəşr edilmişdir.

## Основные даты жизни и творчества Абдуррагим бека Ахвердиева

***Абдуррагим бек Ахвердиев родился 17 мая 1870 года в селе Акбулаг, в шести километрах от города Шуша.***

**1880** – Семья писателя переехала из села Агбулаг в Шушу. Абдуррагим поступает в школу Юсифбека Меликхагназарова и паралеллельно учится в моллахане.

**1881** – Успешно сдает экзамены и 10 октября зачислен в Шушинскую реальную школу.

**1884** – Увидел поставленную в Шуше Юсифбеком Меликхагназаровым комедию М.Ф.Ахундова «Медведь, победитель разбойника»;
– Под влиянием комедий М.Ф.Ахундова пишет пьесу «Гаджи Дашдемир», рукопись которой не сохранилась.

**1890** – 8 июня окончил шестой класс Шушинской реальной школы. В августе поступил в седьмой класс Тифлисской реальной школы. Год учится здесь;
– Пишет трагедию «Нахаг ган» («Напрасная кровь»).

**1891** – 14 июня окончил Тифлисскую реальную школу. Поступает в Петербургский Институт Дорожного Строительства.

**1892** – Посещает спектакли Александринского театра в Петербурге, пишет произведение "Yeyərsən qaz ətini, görərsən ləzzətini" («Попробуешь гусятину, узнаешь вкус»)

**1895** – В июле по пути из Тифлиса в Баку в поезде знакомится с Наджафбеком Везировым (1854-1926), читает рукопись его трагедии «Çəkmə çəkə bilməzsən, bərkdi fələyin yayı» («Не тяни, не хватит сил, крепка узда судьбы»), предлагает переименовать произведение «Мусибети-Фахреддин» («Трагедия Фахреддина»).

**1896** – Слушает лекции на восточном факультете Петербургского университета;
– Будучи студентом, пишет трагедию «Дагылан тифаг» («Разоренное гнездо»).

**1897** – В Петербурге создается «Исламское благотворительное общество». В августе в Шуше в постановке А.Ахвердиева показана сценка «Меджнун у могилы Лейли».

**1899** – «Дагылан тифаг» издается в Петербурге отдельной книгой;
–Заканчивает институт.
– Преподает в Шуше.

**1900** – Пишет пьесу «Бехтсиз джаван» («Несчастный юноша»). В том же году пьеса сыграна на сцене.

**1901** – Переезжает из Шуши в Баку, занимается здесь педагогической деятельностью;

– Завершает пьесу «Пери-джаду» («Прекрасная волшебница»).
– Организует в Баку «Мусульманскую драматическую труппу».
– Впервые в Баку создал Ансамбль народных инструментов.
– В Шуше проходит «Восточный концерт» исполнителей народной музыки.

**1902** – 11 января в Баку проходит Первый восточный концерт.

**1904** Возвращается из Баку в Шушу, где живет семь лет;
– Избран членом Шушинской городской управы.

**1905** – Пишет пьесу «Друзья нации». Работа опубликована в газете «Хаят».

**1906** – Был избран депутатом Государственной Думы от Гянджинского района;
– Уезжает в Санкт-Петербург
– Публикует в газете «Хайят» рассказы «Отец и сын», «Свидетельство луны».

**1907** – В журнале «Молла Насреддин» по частям печатается повесть «Письма из ада». Пишет пьесу «Ага Мухаммед шах Гаджар»;
– Переводит на азербайджанский язык рассказ В.Г.Короленко «Старый звонарь».

**1908** – В журнале «Молла Насреддин» печатается новелла «Бомба»;

– Руководит в Баку постановкой оперы Узеира Гаджибекова «Лейли и Меджнун».
– Переводит на азербайджанский язык пьесы: «Гамлет» Шекспира, «Коварство и любовь», «Разбойники». «Вильгельм Телль» Шиллера, «Султан Осман» Вольтера.

**1909-1910** – Пишет несколько рассказов из цикла «Маралларым», которые публикует в журнале «Молла Насреддин»;
– Поступает на службу в Управление Каспийского пароходства, едет в Астрахань, где встречается с Нариманом Наримановым.

**1911** – Переезжает в Агдам. В связи с 100-летием со дня рождения М.Ф.Ахундова пишет автобиографическую пьесу «Утопия», которую издает в Баку;
– Написана пьеса «Голодные персонажи».

**1912-1913** – Живет в Агдаме, создает театральную группу, осущестляет различные театральные постановки;
– Пишет статью «Два года» посвященную годовщине смерти М.А.Сабира, которая публикуется в журнале «Молла Насреддин».

**1914** – Пишет в Агдаме рассказ «Шейх Шабан», читает его Джалилу Мамедкулизаде и Ибрагиму Тахиру.

**1915** – Рассказ «Шейх Шабан» опубликован в газете «Ачыг соз».

| | |
|---|---|
| **1916** | – Переезжает из Агдама в Тифлис. Руководит издающимся в Тифлисе альманахом «Вестник Кавказского отделения Союза городов». |
| **1917** | – В дни февральской революции исполняет обязанности комиссара в Борчалинском уезде. В альманахе «Гардаш кемеги» («Братская помощь») под псевдонимом «Эфенди» печатает рассказ «Ройя». В журнале «Молла Насреддин» печатается его рассказ «Хемшери паспорту» . |
| **1918-1919** | – Проживает в Тифлисе, Дагестане и в Баку;<br>– Публикует первый вариант рассказа «Мирза Сафар» в журнале «Тартан-партан». |
| **1920** | – Работает заведующим художественным отделом Министерства образования;<br>– Работает инспектором в Государственном театре.<br>– Ставит пьесы «Пери-джаду», «Дагылан тифаг» и «Бехтсиз джаван». |
| **1921** | – Читает лекции по литературе в Азербайджанском Государственном Университете (1921-1931). |
| **1922** | – В Азербайджанском Государственном театре проходит торжественный вечер посвященный 30-летию его литературной деятельности, представлены отрывки из его произведений;<br>– Пишет пьесу «Падишахын махаббати» («Любовь падишаха»). |

**1923** – Руководит комиссией по организации 50-летнего юбилея азербайджанского театра. Избран заместителем председателя, а затем председателем Общества по Исследованию и Изучению Азербайджана.

**1924** – В газете «Коммунист» от 14 марта опубликована статья А.Ахвердиева «Беш ил» («Пять лет») посвященная годовщине смерти Аликули Гямкусара. На первом съезде азербайджанских краеведов избран председателем этого общества. Избран членом Бюро краеведения Российской академии Наук.

**1926** – Пишет пьесы «Агадж колгесинде», «Вавейла», «Адалет капылары».

**1927** – Пишет пьесу «Кехне дудман» («Старый очаг»);
– Отмечается 35-летие его литературной деятельности.

**1928** – Удостоен звания «Заслуженный деятель искусства»;
– Пишет статьи: «Жизнь и деятельность М. Ф. Ахундова», «Мирза Фатали и арабский алфавит», «Трагедия Мирза Фатали».
– Написал пьесу «Женский день».
– Опубликовал свои переводы из произведений М.Горького и А.П.Чехова в виде книг «Белоснежка» и «Страшная ночь».

**1929** – Руководит делегацией азербайджанских писателей в поездке по Грузии и Армении.

| | |
|---|---|
| **1931-1932** | – Работает ответственным секретарем Азербайджанского Совета Союза писателей;<br>– Пишет пьесы «Йолдаш Кероглы» («Товарищ Кероглы»), «Очень красиво», «Сагсаган».<br>– Отметил 40-летие своей литературной деятельности. |
| **1933** | – Скончался в Баку 11 декабря. Похоронен на Аллее почетного захоронения. |
| **1936** | – «Избранные произведения» Ахвердиева были опубликованы старым латинским шрифтом в издательстве «Азернешр» под редакцией Мир Джалала. |
| **1938** | – В издательстве «Азернешр» старым латинским шрифтом издана книга «Пьесы и рассказы». |
| **1948** | – В «Детюниздат» вышла книга «Рассказы и переводы» для детей начальных школ. |
| **1950** | – В Баку издана книга Кямрана Мамедова «Абдуррагимбек Ахвердов» из серии «Выдающиеся люди Азербайджана». |
| **1951** | – В «Детюниздат» была опубликована книга «Рассказы» для детей среднего и старшего возраста. |
| **1956** | – Двухтомник «Избранные сочинения» опубликован издательством «Азернешр». |
| **1963** | – По мотивам рассказов «Мои олени» снят одноименный фильм. |

**1964** – Республиканской Книжной Палатой составлена библиография «Абдуррагим бек Ахвердов».

**1968** – Постановлением Совета Министров Азербайджанской ССР Агдамскому театру было присвоено имя Абдуррагим бека Ахвердиева.

**1971** – Двухтомник «Избранные сочинения» опубликован издательством «Азернешр».

**1975** – Книга Ингилаба Каримова «Абдуррагим бек Ахвердов и театр» была опубликована в издательстве «Элм».

**1983** – Фильм «Хочу жениться» снят режиссером Джахангиром Мехтиевым по рассказам «Мирза Сафар», «Шляпа» и «Бомба».

**1988** – В издательстве «Язычи» вышла в свет книга Тахсина Муталлимова «Поэтика Абдуррагим бека Ахвердова».

**1993** – Режиссер Рамиз Гасаноглу снял одноименный фильм-спектакль по пьесе А.Ахвердиева «Голодные персонажи».

**2005** – Произведения А.Ахвердиева, изданные по Распоряжению Президента Азербайджанской Республики Ильхама Алиева от 12 января 2004 года «Об осуществлении массовых изданий латинской графикой на азербайджанском языке», были переданы в дар библиотекам страны.

| | |
|---|---|
| **2012** | – Мехри Мамедова издала книгу «Пояснительное описание архива Абдуррагим бека Ахвердиева». |
| **2014** | – Фильм-спектакль «Голодные персонажи» был поставлен режиссером Рамизом Гасаноглу в экспериментально-творческой мастерской «Сабах»;<br>– Была выпущена именная почтовая марка А.Ахвердиева. |
| **2019** | –7 мая Постановлением №211 Кабинета Министров Азербайджанской Республики произведения писателя объявлены государственной собственностью. |
| **2020** | – 31 января Президент Азербайджана Ильхам Алиев подписал Распоряжение «О праздновании 150-летнего юбилея Абдуррагим бека Ахвердиева»;<br>– Имя Абдуррагим бека Ахвердиева включено в список юбилеев выдающихся лиц и знаменательных событий ЮНЕСКО на 2020-2021 годы.<br>– Электронная база данных «Абдуррагим бек Ахвердиев-150» подготовлена Национальной Библиотекой имени М.Ф.Ахундова.<br>– Национальной библиотекой имени М.Ф.Ахундова в виртуальном режиме представлен дайджест под названием «Абдуррагим бек Ахвердиев-150».<br>– Республиканской Детской Библиотекой имени Ф.Кочарли составлено методическое пособие «Великое творчество великого писа- |

теля» для детских отделов центральных библиотек, городских, поселковых, сельских библиотечных филиалов ЦБС.

– В Национальной Библиотеке имени М. Ф. Ахундова из серии «Выдающиеся деятели Азербайджана» составлена и издана фундаментальная библиография «Абдуррагим бек Ахвердиев».

# Görkəmli şəxsiyyətlər
# Əbdürrəhim bəy Haqverdiyev haqqında

Əbdürrəhim bəy Haqverdiyev öz məşhur sələflərinin ədəbi ənənələrinin layiqli davamçısı və geniş erudisiyaya malik müasir dünyagörüşlü maarifpərvər ziyalı kimi çoxşaxəli fəaliyyət göstərmiş, Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni mərhələyə qaldıraraq milli düşüncənin inkişafında əhəmiyyətli rol oynamışdır. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin açılışına yol açmışdır. Onun canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Vətənpərvər ədib sevdiyi və təmənnasız xidmətində dayandığı xalqın arzu və istəklərini əsərlərində dolğun əks etdirmiş, maarifçiliyin alovlu təbliğatçısı olaraq daim mədəni oyanışa və tərəqqiyə səslənmişdir. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ictimai həyatında fəal iştirak etmiş və sosial mədəni quruculuq işlərində yorulmadan çalışmışdır.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***

Əbdürrəhim bəy Haqverdiyevin nəsr dili bu dövr realist nəsrimiz üçün çox səciyyəvidir. Bu dildə sünilik, ibarəçilik, zahiri bəzək, əcnəbi təsir, demək olar ki, yoxdur. Canlı danışıq dilimizi, onun gözəl xüsusiyyətlərini, zəngin əlvan söz ehtiyatını, xalq məsəllərini, hakimanə sözlərini bu qədər cəsarətlə yazıya, bədii ədəbiyyata gətirən iki ədibimiz varsa, biri Haqverdiyevdir. Ona görə də ədibin dili əlvan, söyləmə üsulu şirin, ədası xoş, təsvirləri səlisdir... Yeknəsəklik, yoruculuq Haqverdiyevin hekayələrinə yaddır. Onun ifadə, nağıl, söyləmə üsulu müxtəlif və əlvandır...

Xalq danışıq dilinin zənginliklərini, canlı, şirin söz və ifadə-

ləri cürətlə yazıya gətirir. Əbdürrəhim bəyi, müəyyən mənada, yeriyən Azərbaycan adlandırmaq olar.

**Mir Cəlal,**
***Əməkdar elm xadimi, professor, yazıçı-publisist, ədəbiyyat tənqidçisi, dramaturq, tərcüməçi***

Əbdürrəhim bəy Haqverdiyev hər şeydən qabaq "Molla Nəsrəddin" məcmuəsinin ibtidasından... məcmuənin ən yaxın əməkdaşlarından və məsləhətçilərindən hesab olunur. Qoca əməkdaşımızın bu günlərdə təhiyyə olunan yubileyini "Molla Nəsrəddin" öz bayramı kimi alqışlayacaqdır.

**Cəlil Məmmədquluzadə**,
***Yazıçısı, dramaturq, ictimai xadim; "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi.***

Əbdürrəhim bəy Haqverdiyev əsası Mirzə Fətəli Axundov tərəfindən qoyulan yeni, realist Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biridir. Ədəbiyyat tariximizə böyük dramaturq, ustad, nasir və mahir bir mühərrir kimi daxil olub qırx illik zəngin yaradıcılıq yolu keçmişdir. Onun yaradıcılıq yolu – bütün ömrü boyu sonsuz məhəbbətlə sevdiyi doğma xalqına, ana yurduna yorulmadan xidmət edən vətənpərvər bir sənətkarın yaradıcılıq yoludur.

**Abbas Zamanov**
***Əməkdar elm xadimi, Azərbaycan EA müxbir üzvü, filologiya elmləri doktoru, professor***

Əbdürrəhim bəy Haqverdiyev M.F.Axundov ədəbi məktəbini yeni şəraitdə davam və inkişaf etdirərək, XIX əsrin sonu və XX əsr Azərbaycan həyatı əks olunan dolğun məzmunlu dram əsərləri, yumorist-satirik hekayələri ilə şöhrətlənmiş, həm də ictimai bir xadim kimi realist ədəbiyyatımızın və sənətimizin inkişafında mühüm rol oynamışdır. Öz xalqının yeni həyata olan istəyini bədii yaradıcılığında məharətlə əks etdirən humanist sənətkar yaşa-

dığı dövrün mütərəqqi ideyalarından ilham almış, inqilabi-demokratik məfkurələrin təbliğatçısı olan məşhur "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşlarından biri kimi geniş xalq kütlələrinin məhəbbətini qazanmış, həmin jurnalda tək satirik ruhlu hekayələri ilə deyil, həm də təsirli publisistik əsərləri ilə Azərbaycan xalqı və mədəniyyətini inkar etməyə çalışan əksinqilabçı burjua jurnalistlərinə qarşı mübarizənin qabaqcıl iştirakçılarından biri olmuşdur.

**Kamran Məmmədov,**
***Filologiya elmləri doktoru, professor***

Əbdürrəhim bəy Haqverdiyev XIX əsrin sonu-XX əsrin əvvəlləri Azərbaycan ictimai-ədəbi və mədəni fikri tarixində özgün yeri olan şəxsiyyətlərdəndir. O, dramaturq, rejissor, dirijor, nasir, publisist, pedaqoq, tədqiqatçı alim kimi çoxcəhətli səmərəli fəaliyyəti ilə milli-mədəni şüurumuzun və sosial-siyasi düşüncəmizin inkişaf edib formalaşmasında xüsusi rol oynamış, duma üzvü, xalq komissarı və digər vəzifələr daşımaqla dövlətçilik və idarəçilik işinin təkmilləşdirilməsi sahəsində öz xidmətlərini əsirgəməmişdir.

**Alxan Bayramoğlu,**
***Filologiya elmləri doktoru, professor***

Ə.Haqverdiyev zəngin yaradıcılığa, geniş həyat təcrübəsinə malik bir sənətkardır. O dramaturq, nasir, mühərrir və eyni zamanda yüksək mədəniyyətli teatr xadimi, istedadlı alim və mütərcim olmuşdur. Onun qoyub getdiyi ədəbi irs Azərbaycan ədəbiyyatının heç zaman öz təravətini itirməyən unudulmaz, şanlı səhifələrindən biridir.

***

Əbdürrəhim bəy Haqverdiyev ictimai həyatdan tutmuş məişət həyatınadək bütün məqamlarda azərbaycanlını yüksəkdə görmək arzusu ilə yazıb-yaratmışdır. O, əsərlərində mollanəsrəddinçiliyə daim sadiq qalmış, vətənin azadlığına, xalqın oyanışına,

müstəqil düşünməsinə, haqqı nahaqdan seçməsinə, ana dilinin geniş yayılmasına yardımçı olmağa səy göstərmişdir.

**Allahverdi Məmmədli,**
***Filologiya elmləri doktoru, professor***

Ruhən xalqa yaxın, xalq həyatını, məişətini dərindən bilən Əbdürrəhim bəy Haqverdiyev bütün hekayə və dramlarında, publisist yazılarında şifahi xalq yaradıcılığından, onun müxtəlif məna çalarlarından bol-bol istifadə etmişdir.

**Nizami Xəlilov,**
***Filologiya elmləri doktoru, professor***

Yığcamlıq, təsvir və surətlərin təbiiliyi, obrazı konkret cizgilərlə canlandırmaq, dilin oynaqlığı və lakoniklik Ə.Haqverdiyev hekayələrinin əsas xüsusiyyətlərindəndir. Ədibin hekayə dili, obrazı təsvir üsulu dolğun və hərtərəflidir. Bütün əsərlərində obrazı təsvir üsulunda bu dolğunluğu görmək mümkündür. Hər bir qəhrəmanın özünəməxsus geyimi və geyiminə uyğun da hərəkətləri, fərdi keyfiyyətləri var.

**Günay Qarayeva,**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

Əbdürrəhim bəy Haqverdiyev xalqını böyük məhəbbətlə sevən, onun övladlarını daim tərəqqidə görmək istəyən alovlu vətənpərvər yazıçı və ictimai xadim idi.

**Nadir Vəlixanov,**
***Filologiya elmləri namizədi***

Haqverdiyevin dramaturguyası həm ideya-estetik məzmun, həm də forma-struktur baxımından zəngindir. Onun dram, faciə, vodevil janrlarında yazdığı əsərlər Azərbaycan dramaturgiyasının bədii inciləri sırasına daxildir. Tarixi və müasir mövzularda yazılmış bu əsərlərdə doğma xalqın həyat və məişəti, sevinc və kədəri, arzu və istəkləri, maddi azadlıq uğrunda mübarizəsi, vətənpərvər-

lik hisləri, qəhrəmanlıq duyğuları sənətkarlıqla göstərilir. İctimai mənşəyindən, sinfindən və təbəqəsindən asılı olmayaraq, ədibin dramaturgiyasında təsvir olunan surətlərin hər biri ayrılıqda və hamısı birlikdə XIX əsrin sonları, XX əsrin birinci çəyrəyində yaşayıb fəaliyyət göstərmiş azərbaycanlının milli xarakterini bütöv təqdim edir.

**Zaman Əsgərli,**
***Ədəbiyyatşünas, Filologiya elmləri doktoru***

Haqverdiyev ucaboy, xoşsima, xalq ədəbiyyatını, adət-ənənələrini çox yaxşı bilən, hazırcavab, çox məzəli söhbətləri olan birisi idi. Yaman məzəli lətifələr bilirdi. Hərdən bu qədər lətifəni necə yadında saxladığına heyrət edirdim. Bir sözlə, Əbdürrəhim bəy anadangəlmə mollanəsrəddinçi idi.

**Qulam Məmmədli,**
***Publisist, teatrşünas, salnaməçi***

Xalq üçün alışıb yanan, sadə, lakin olduqca işgüzar gözəl ədib və gözəl müəllim. Bir sözlə, əsil insan!..

**Əfrasiyəb Bədəlbəyli,**
***Xalq artisti***

Azərbaycan ədəbiyyatında əlçatmaz zirvə hesab olunan Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı çoxəsrlik ədəbiyyatımızda ən orijinal, təkrarolunmaz, zəngin söz xəzinəsi ilə yaddaşlara həkk olunub. O, öz vicdanının pıçıltısı ilə yazan, heç vaxt sənətkar vicdanına zidd getməyən sözün əsl mənasında yazıçı, gözəl bir insan idi.

***

Əbdürrəhim bəy Haqverdiyevin ədəbi-nəzəri görüşləri onun yaradıcılığında əsas mövqedə dayanır. Onun bütün yaradıcılığında, elmi məqalələrində və hətta məktublarında ədəbiyyatımızın inkişafına xidmət edəcək fəlsəfi, ədəbi-elmi fikir dayanır.

**Solmaz Həyatova,**
***Ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru***

Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatı tarixində dramaturq, nasir, teatr xadimi, istedadlı alim və mütərcim kimi məşhurdur. Onun ədəbi irsi ədəbiyyatımızın xəzinəsini zənginləşdirən qiymətli mirasdır. Xalqını mədəni, xoşbəxt və azad görmək arzusu Haqverdiyevin yaradıcılığında mərkəzi yerlərdən birini tutur.

**Əbdül Əzizov,**
***Filologiya elmləri namizədi***

50 illik fəaliyyəti müddətində bir çox ədəbi və mədəni izlər buraxıb gedən Haqverdiyev daim tərəqqipərvər olmuş, yalnız yeniliklə maraqlanmaqla kifayətlənməyib, bu yeniliklərin həyata keçməsi uğrunda mübarizə aparmışdır.

**Hacıbala Nəzərli,**
***Yazıçı***

Yüksək mədəniyyət və istedad sahibi yazıçı Haqverdiyev teatrın böyük dostu idi. O, teatrı gözəl bilirdi. Teatr bütün sənət məsələləri haqqında ondan ətraflı məlumat alırdı, onun pyesləri həmişə müvəffəqiyyətlə tamaşaya qoyulurdu. O, teatrı sevirdi, teatrda vicdanla işləyirdi, onunla müsahibələr uzun zaman yaddan çıxmırdı. O, dil, söz uğrunda, onun dürüstlüyü uğrunda möhkəm mübarizə aparır və bayağı heç bir şeyə yol vermirdi. O, teatrın, tam mənası ilə, bir əsgəri idi və həmişə realist sənət bayrağını yüksək tuturdu.

**Aleksandr Tuqanov,**
***Teatr xadimi***

Azərbaycan realist nəsrinin görkəmli nümayəndəsi sayılan Əbdürrəhim bəy Haqverdiyevin əsərləri Azərbaycan ədəbiyyatına yeni nəfəs və şöhrət gətirdi.

**Flora Xəlilzadə,**
***Əməkdar jurnalist, şair, publisist***

# Əbdürrəhim bəy Haqverdiyevin müdrik fikirləri

…Mənim ədəbiyyata ciddi surətdə girişməm 1890-cı illərdəndir ki, Tiflis realnı məktəbində olan vaxt rus ədiblərindən Qoqol və Ostrovskini, Avropa ədiblərindən Şekspir, Şiller, Molyeri və sairələri tanımağa başladım və müntəzəm olaraq teatrlara gedib həqiqi səhnənin nə olduğunu anladım.

***

…Dünyada insaniyyətə, millətə və mədəniyyətə ən böyük xidmətlərdən biri artistlikdir. Artist üzünü unluyub acı həqiqətləri sənətin şəkəri ilə şirinləşdirib camaata yedirdir. Bu cəhətdən artistliyin yolları nə qədər ağır, tikanlı olsa da, qiymətlidir. Çünki nəticəsi parlaqdır.

***

...Əgər Mirzə Fətəliyə qəbirdən bir dəqiqəliyə baş qaldırıb ətrafa bir nəzər salmaq mümkün olsaydı, o vaxt cəmi arzularının həyata keçməsini, yeritmək istədiyi ideyalarının tətbiqini görüb, dərin bir nəfəs çəkib həmişəlik rahat yatardı.

***

"Cəhənnəm məktubları" əsərini yazmaqda məqsəd mövhumatın avam türk xalqının başında nə dərəcədə möhkəm bir mövqe tutmasını göstərmək idi.

***

Sən musiqiçisən, [Ə.Bədəlbəyli] ədəbiyyatı da yaxşı bilirsən. Məsləhət görərdim ki, poetik söz və musiqi problemi ilə məşğul

olasan. Avropada bu mövzu çoxdan və dərindən işlənib, rus musiqişünasları da bu sahədə öz işlərini davam etdirirlər. Niyə Azərbaycanda belə bir mühüm məsələyə aid elmi əsərlərimiz olmasın.

***

"Hesabsız hədə kağızlarına, föhşlərə, həcvlərə, maddi və "mənəvi" vədlərə etina etməyərək öz tutduğu məqsəddən, məsləkdən bir qədər geri durmamaqla Mirzə Cəlil öz azacıq dostları ilə birlikdə axırda qalib gəlib, həmişəlik bir ad və Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "Molla Nəsrəddin" dövrü qoya bildi.

***

"... Gözəl natiq, şirin zəban, dərin fikirli, geniş məlumat sahibi Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm.

# I HİSSƏ

# ƏSƏRLƏRİ

## Kitabları

### 1899

**1. Dağılan tifaq**: [Keyfiyyətdir ki, dörd məclisdə tamam olur. Üçüncü məclis iki nimməclisdən bəhəmə gəlir] / Əbdürrəhim bəy Haqverdiyev. – Sankt-Peterburq: İlyas Mirzə Buraqanski və kompaniyasının mətbəəsi, 1899. – 46 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Əsər Azərbaycanda mülkədarlığın tənəzzülə uğraması, patriarxal-feodal münasibətlərin burjua münasibətləri ilə əvəz olunmağa başlamasından bəhs edir.

"Dağılan tifaq" kəskin dramatik konfliktə malik bir faciədir. Konflikt elə məharətlə qurulmuşdur ki, əsas surətlər pərdədən-pərdəyə keçdikcə dolğunlaşır, öz səciyyəvi xüsusiyyətlərini aşkara çıxarır. Əsas qəhrəman və onun ailəsi get-gedə fəlakətə yaxınlaşır və nəhayət pyes acınacaqlı, faciəli bir sonluqla bitir. Pyesin dili təbii, səlis və aydındır.

### 1907

**2. Millət dostları**: [Bir məclisdə xırda milli teatr] /Əbdürrəhim bəy Haqverdiyev. – Tiflis: Qeyrət şirkət mətbəəsi, 1907. – 22 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Əsərdə bir sıra riyakar, boşboğaz ziyalılar gülüş hədəfinə çevrilmişdir. Komik planda işlənmiş beş ziyalı surətinin hərəsi bir peşədən götürülmüşdür. Əsərin qəhrəmanı Əsgər bəy dava vəkili, onun dostları Firudin bəy mühəndis, Səfər bəy meşəbəyi, Vəli bəy həkim, Mürsəl bəy isə silistçidir. Bu beş surət birlikdə ədibin

istehza ilə "millət dostları" adlandırdığı bəzi ziyalıların bədii ümumiləşməsi kimi görünür və tənqidi gülüş daha kəskin ictimai məzmun kəsb edir. Onlar dildə millət haqqında yanıqlı, bərbəzəkli nitqlər söyləyir, işdə isə heç bir ağıllı, mütərəqqi tədbir həyata keçirə bilmirlər. Çünki onların zahirən aldadıcı görünən nitqləri, xalqın geriliyinə guya təəssüflənmələri, kədərlənmələri əslində riyakarlıqdan başqa bir şey deyildir.

**1909**

**3. İki hekayət: Ata və oğul; Ayın şahidliyi** /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Orucov qardaşları, 1909. – 62 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**4. Kimdir müqəssir?:** [vodevil iki məclisdə: məzmun əxz olunub] /Əbdürrəhim bəy Haqverdiyev; naşirləri: Məhəmmədbağır Əliyev və Ağadadaş Həsənov. – Bakı: Kaspi şirkəti mətbəəsi, 1909. – 51+2 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Əsərdə tənbəllik və ətalət hissləri tənqid edilir, halal zəhmət, əməksevərlik təlqin olunur. Əsərdə cəmi üç surət vardır. Bütün əsər Mahmudla Baharın söhbətləri və əsasən mübahisələri üzərində qurulmuşdur. Əsas qüsur da ondadır ki, bu deyingən ər-arvadın mübahisələrində uzunçuluq və yeknəsəklik vardır. Surətlərin fəaliyyəti isə zəifdir.

**1911**

**5. Ac həriflər:** [Elektron resurs]: məzhəkə bir məclisdə /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Nəşriyyati-bəradəran Orucov, 1911 [1329 h.] Orucov qardaşlarının elektrik mətbəəsi.– 31 s. CD formasında olan sənəd DVD–395-in 2-2992 şifrəli qovluğunda yerləşdirilmişdir.

**6. Xəyalat**: [Mirzə Fətəli Axundovun 100 illik yubileyi (jovmi-alisi) münasibətilə yazılmış "Xəyalat": bir məclisdə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1911. – 23 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Pyes böyük mütəfəkkir M.F.Axundovun anadan olmasının 100 illiyi münasibətilə yazılmışdır. Əsərdə ilk növbədə M. F. Axundovun öz zəmanəsi ilə, mühiti və müasirləri ilə dərin ixtilafını göstərmək, onun həyat faciəsini açmaq məqsədi izlənmişdir. Pyesdə M.F.Axundovun oğlu Rəşidlə, kitab paylayanla söhbətlərində, habelə komediyalarındakı bəzi surətlərlə dialoqunda bu cəhət çox qabarıq şəkildə nəzərə çatdırılmışdır. Pyesdə M. F. Axundov üç komediyasının satirik surətləri ilə qarşılaşdırılmış, hər surətin xarakterindəki ən səciyyəvi, ən gülünc cəhətlər bir daha kəskin gülüş obyektinə çevrilmişdir.

**1912**

**7. Ağa Məhəmməd şah Qacar**: [faciə beş məclisdə 9 pərdədə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Orucov qardaşlarının mətbəəsi. – 1912. – 71 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Faciənin mövzusunu müəllif İranda Qacar sülaləsi hakimiyyətinin başlandığı dövrdən almışdır. Pyesi yazmadan əvvəl müəllif uzun müddət Peterburqda və İranın Mazandaran şəhərində arxivləri araşdırıb, qələmə almaq istədiyi hadisələri diqqətlə tədqiq etmişdir. Pyesdə tarixi hadisələr mümkün qədər düzgün və ardıcıl verilmişdir. Müəllif tarixi həqiqətə sadiq qalaraq, Qacarın qəddarlığını, müstəbidliyini, vəhşiliyini tam çılpaqlığı ilə təsvir etmiş, onun ölümünü təsadüfi bir qətl deyil, qanuni bir cəza kimi vermişdir.

**1923**

**8. Padşahın məhəbbəti:** [bir məclisdə pyes] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərbaycan Xalq Maarif Komissarlığı, Ali-siyasi maarif idarəsinin nəşriyyatı, 1923. – 16 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Miniatür pyes nağıl-dram janrında yazılmışdır. Sosial hüquqsuzluğa etiraz motivi çox qüvvətli olan bu əsərlərdə dramatik forma ilə nağıl motivləri və nağıl üslubunun orijinal sintezi diqqəti

cəlb edir. Müəllif inqilabi ideyaların uğurlu, sərrast bədii təcəssümü və ictimai mətləblərin aydın, emosional ifadəsi üçün orijinal dramatik formalar seçməyə çalışır. Müasir, tamaşaçılara müasir ideyaları daha effektli çatdırmaq üsullarını, formalarını axtarır.

**1925**

**9. Padşahın məhəbbəti:** [bir məclisdə pyes] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərbaycan Xalq Maarif Komissarlığı, Ali-siyasi maarif idarəsinin nəşriyyatı, 1925. – 16 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**1926**

**10. Ağa Məhəmməd şah Qacar**: [faciə 5 məclisdə 9 pərdədə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1926. – 87 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Faciənin mövzusunu müəllif İranda Qacar sülaləsi hakimiyyətinin başlandığı dövrdən almışdır. Pyesdə tarixi hadisələr mümkün qədər düzgün və ardıcıl verilmişdir. Müəllif tarixi həqiqətə sadiq qalaraq, Qacarın qəddarlığını, müstəbidliyini, vəhşiliyini tam çılpaqlığı ilə təsvir etmiş, onun ölümünü təsadüfi bir qətl deyil, qanuni bir cəza kimi vermişdir.

**11. Ağa Məhəmməd şah Qacar** /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Bakı işçisi, 1926. – 23 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**12. Ağac kölgəsində:** [2 şəkildə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Bakı işçisi, 1926. – 20+15 s. + [1] çarx mikrofilm. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**13. Ağac kölgəsində:** [pyeslər] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Bakı işçisi, 1926. – 23 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

***Kitabın içindəkilər:*** Ağac kölgəsində; Ədalət qapıları.

**14. Ağac kölgəsində:** Kəndli həyatından: [2 pərdəli dram]/ Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Bakı işçisi, 1926. – 15 s. – *Mətn köhnə latın qrafikasındadır.*

Pyesdə Azərbaycan kəndlilərinin zülm və əsarətə son qoyması, kəndlilərin bəylərdən intiqam alması təsvir edilir. Mustafa bəylə kasıb kəndli Cəfər kişi arasındakı konflikt həyatın özündəki konfliktdir. Bu konflikt inqilabdan əvvəlki həyat üçün tipikdir və yazıçı da tipik olan bu hadisəni əsərin mərkəzində təsvir etmişdir.

**15. Bəxtsiz cavan:** [5 məclisdə faciə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1926. – 64 s., portr. 21 sm.+ [1] çarx mikrofilm. 1 mikrofilm çarxında müəllifin 7 əsəri toplanmışdır. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Pyes, iki qütbün – köhnəliklə yeniliyin mübarizəsini təsvir edir. Köhnəliyin nümayəndəsi, ixtiyarında olan kəndlilərin dərisini soyan mülkədar və sələmçidir. Yeni nəsli isə mülkədarın qardaşı oğlu, kəndlilərin torpaq hüququnu müdafiə edən gənc bir sosialist – inqilabçı tələbə təmsil edir.

**16. Dağılan tifaq**: [faciə. 4 məclisdə beş pərdədə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1926. – 62 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

"Dağılan tifaq" kəskin dramatik konfliktə malik bir faciədir və sənət əsəri kimi ustalıqla yazılmışdır. Konflikt elə məharətlə qurulmuşdur ki, əsas surətlər pərdədən-pərdəyə keçdikcə dolğunlaşır, öz səciyyəvi xüsusiyyətlərini aşkara çıxarır. Əsas qəhrəman və onun ailəsi get-gedə fəlakətə yaxınlaşır və nəhayət pyes acınacaqlı, faciəli bir sonluqla bitir. Pyesin dili təbii, səlis və aydındır.

**17. Ədalət qapıları:** [iki şəkildə dram] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Bakı işçisi kooperativ nəşriyyatı, 1926.– 15 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**18. Şeyx Şəban**: [hekayə] /Əbdürrəhim bəy Haqverdiyev.– Bakı: Bakı işçisi, 1926. – 19 s. 22 sm. + [1] çarx mikrofilm.– *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**19. Vaveyla**: [2 pərdə dram]/Əbdürrəhim bəy Haqverdiyev.- Bakı: Bakı işçisi, 1926. – 18 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

**20. Vaveyla**: [2 pərdə drama] /Əbdürrəhim bəy Haqverdiyev.–Bakı: Bakı işçisi, 1926. – 22 s.+ [1] çarx mikrofilm. 1 mik-

rofilm çarxında müəllifin 7 əsəri toplanmışdır. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

## 1927

**21. Ac həriflər:** [məzhəkə bir məclisdə] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 20 s. – *Mətn köhnə latın qrafikasındadır.*

**22. Xəyalat:** [bir məclisdə: Mirzə Fətəli Axundovun 100 illik yubileyi (jovmi-alisi) münasibətilə yazılmışdır] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 16 s.

**23. Köhnə dudman**: [2 hissə və 9 şəkildən ibarət pyes:1 mikrofilm çarxında müəllifin 7 əsəri toplanmışdır] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 99 s. 21 sm.+ [1] çarx mikrofilm. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

Əsərdəki hadisələri XVIII əsrə aid etmək olar. Bu əsərdə ədib Azərbaycan xanlarının harın və azğın həyatını, dəhşətli istismar üsullarını, habelə xalq intiqamına məruz qalmalarını və süqut etmələrini çox maraqlı, xarakter lövhələrdə göstərmişdir. Pyesdə on səkkizinci əsr feodallarından olan Pərviz xanın vəhşilikləri, adam alıb-satması, kəndlilər üzərindəki zülm və istibdadı təsvir edilmişdir. Pyesin sonunda azadlığa çıxmış Azərbaycan kəndindəki ilk inqilabi tədbirlərdən, zəhmətkeş insanların səadətli günlərindən bəhs edilmişdir.

**24. Köhnə dudman**: [2 hissə və 9 şəkildən ibarət pyes] / Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927.– 99 s.– Mətn köhnə latın qrafikasındadır.

**25. Marallarım**: [kiçik hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 109,[2] s.+ [1] çarx mikrofilm. 1 mikrofilm çarxında müəllifin 7 əsəri toplanmışdır.-*Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

***Kitabın içindəkilər***: Mütrüb dəftəri; Şikayət; Qiraət; Dəccalabad; Şəbeh; Pir; Tənqid; Acından təbib; Bomba; Həmşəri pasportu; Keçmiş günlər; Uca dağ başında; Seyidlər ocağı; Çeşmək; Haqq mövcud; İt oyunu; Diş ağrısı. – Mirzə Fətəli Axundov: [“Xəyalat”: 1 məclisdə pyes].

**26. Marallarım**: [kiçik hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 86 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər***: Mütrüb dəftəri; Şikayət; Qiraət; Dəccalabad; Şəbeh; Pir; Tənqid; Acından təbib; Bomba; Həmşəri pasportu; Keçmiş günlər; Uca dağ başında; Seyidlər ocağı; Çeşmək; Haqq mövcud; İt oyunu; Diş ağrısı.

**27. Mirzə Fətəli Axundov**: [“Xəyalat”: 1 məclisdə pyes] / Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1927. – 16 s.– *Mətn köhnə latın qrafikasındadır.*

## 1928

**28. Qadınlar bayramı 8 mart**: [iki pərdəli pyes] /Əbdürrəhim bəy Haqverdiyev; red. A.Sultanov. – Bakı: Azərnəşr, 1928. – 31s. – *Mətn Azərbaycan dilində ərəb qrafikasındadır.*

## 1930

**29. Xortdanın cəhənnəm məktubları:** [1-ci çapı]/ Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Qərib. – Bakı: Azərnəşr, 1930. – 124 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər:*** Bir neçə söz; Müqəddimə; Cəhənnəm; Odabaşının hekayəsi.

## 1932

**30. Şəbih** /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Aslanov. – Bakı: Azərnəşr, 1932. – 34 s. – *Mətn köhnə latın qrafikasındadır.*

## 1935

**31. Dağılan tifaq** /Əbdürrəhim bəy Haqverdiyev; red.: S. Rəhman. – Bakı: Azərnəşr, 1935. – 81 s. – *Mətn köhnə latın qrafikasındadır.*

“Dağılan tifaq” kəskin dramatik konfliktə malik bir faciədir. Sənət əsəri kimi ustalıqla yazılmışdır. Konflikt elə məharətlə qurulmuşdur ki, əsas surətlər pərdədən-pərdəyə keçdikcə dolğun-

laşır, öz səciyyəvi xüsusiyyətlərini aşkara çıxarır. Əsas qəhrəman və onun ailəsi get-gedə fəlakətə yaxınlaşır və nəhayət pyes acınacaqlı, faciəli bir sonluqla bitir. Pyesin dili təbii, səlis və aydındır.

**1936**

**32. Seçilmiş əsərləri** /Əbdürrəhim bəy Haqverdiyev; redaktor və müqəddimə Mir Cəlal. – Bakı: Azərnəşr, 1936.– 723 s.– *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər*: Mir Cəlal.** Bioqrafiyası. – Pəri cadu; Dağılan tifaq: (faciə: dörd məclisdə, beş pərdədə); Bəxtsiz cavan: (beş pərdədə); Ağa Məhəmməd şah Qacar: (faciə: beş məclisdə, doqquz pərdədə); Xəyalat: Mirzə Fətəli Axundovun təvəllüdünün yüz illiyi münasibətilə yazılmış: (drama bir pərdədə); Baba yurdunda: (dram beş pərdədə); Ağac kölgəsində: (drama: 2 pərdədə); Ədalət qapıları: (drama iki pərdədə); Köhnə dudman: (faciə: iki hissə və doqquz pərdədən ibarət); Qadınlar bayramı: 8 mart: (iki pərdəli dram). – Marallarım: müqəddimə əvəzinə; Mütrüb dəftəri; Şikayət; Qiraət; Dəccalabad; Şəbih; Pir; Tənqid; Acından təbib; Bomba; Həmşəri pasportu; Keçmiş oyunlar; Uca dağ başında; Seyidlər ocağı; Çeşmək; Haqq mövcud; İt oyunu; Diş ağrısı. – Xortdanın cəhənnəm məktubları: Bir neçə söz; Müqəddimə; Cəhənnəm; Odabaşının hekayəsi. – Şeyx Şəban.

**33. Şeyx Şəban** /Əbdürrəhim bəy Haqverdiyev; red.: Əbülhəsən. – Bakı: Azərnəşr, 1936. – 16 s. – *Mətn köhnə latın qrafikasındadır.*

**1937**

**34. Dağılan tifaq**: [foto-albom] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı, 1937. – 13 v. :fotoşək. – *Mətn köhnə latın qrafikasındadır.*

**35. Xortdanın cəhənnəm məktubları:** [2-ci çapı] /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Aslanov. – Bakı: Azərnəşr, 1937. – 145 s.

**36. Marallarım:** [kiçik hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Azərnəşr, 1937. – 135 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər:*** Diş ağrısı; İt oyunu; Haqq mövcud; Çeşmək; Seyidlər ocağı; Uca dağ başında; Keçmiş günlər; Həmşəri pasportu; Bomba; Acından təbib; Tənqid; Pir; Şəbeh; Dəcəl–abad; Qiraət; Şikayət; Mütrüb dəftəri.

**37. Şəbih:** [hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Aslanov. – Bakı: Azərnəşr, 1937. – 34 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər*:** Şəbih; Pir; Uca dağ başında; Seyidlər ocağı.

**1938**

**38. Marallarım:** [kiçik hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev; məsul burax.: İ. Əliyev. – Bakı: Azərnəşr, 1938. – 111 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər*:** ***Hekayələr:*** Diş ağrısı; İt oyunu; Haqq mövcud; Çeşmək; Seyidlər ocağı; Uca dağ başında; Keçmiş günlər; Həmşəri pasportu; Bomba; Acından təbib; Tənqid; Pir; Şəbeh; Dəcəlabad; Qiraət; Şikayət; Mütrüb dəftəri.

**39. Pyeslər və hekayələr** /Əbdürrəhim bəy Haqverdiyev.– Bakı: Azərnəşr, 1938. – 116 s. – *Mətn köhnə latın qrafikasındadır.*

***Kitabın içindəkilər*:** Dağılan tifaq; Xəyalat; Mütrüb dəftəri; Bomba; Uca dağ başında; Şeyx Şəban.

**1940**

**40. Hekayələr** /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə. Sadıq; müqəddimə M.Rzaquluzadə. – Bakı: Uşaqgəncnəşr, 1940. – 128 s.

***Kitabın içindəkilər:*** Müsibət; Sarı toyuq; Yeni təbabət; İanə; Pristav və oğru; Ovçu Qasım; Qisas; Qəndil; Kapitalizmlə mübarizə; Mirzə Səfər; Qurban; Qoca Tarzən; Söhbət.

**1941**

**41. Əsərləri** /Əbdürrəhim bəy Haqverdiyev; tərt. ed. Mir Cəlal; red. H.Səmədzadə; SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Nizami adına Ədəbiyyat və Dil İnstitutu.–Bakı: EAAzF nəşriyyatı, 1941. – Cild 3: Proza.-321 s.

***Kitabın içindəkilər*:** **Nəsr:** Ata və oğul; Ayın şahidliyi.– **Xortdanın cəhənnəm məktubları:** Bir neçə söz; Müqəddimə; Cəhənnəm; Odabaşının hekayəsi; Cəhənnəm məktubları; Bomba. – **Marallarım:** Müqəddimə əvəzinə; Mütrüb dəftəri; Şikayət; Dəcəlabad; Şəbih; Yaşılbaş sona; Qiraət; Pir; Acından təbib; Tənqid; Həmşəri pasportu; Keçmiş günlər; Uca dağ başında; Seyidlər ocağı; Çeşmək; Haqq mövcud; İt oyunu; Diş ağrısı. – **Şeyx Şəban. – Yeni təbabət**: Yeni təbabət; Qəndil; Pristav və oğru; Ovçu Qasım; Mirzə Səfər; Söhbət; Sarı toyuq; Kapitalizmlə mübarizə; Qoca tarzən; İanə; Müsibət; Qisas; Qaban**. – Röya.**

**42. Hekayələr** /Əbdürrəhim bəy Haqverdiyev; Mir Cəlalın müqəddiməsi ilə. – Bakı: Azərnəşr, 1941. – 112 s. – *Mətn Azərbaycan dilində ərəb qrafikası ilə verilmişdir.*

***Kitabın içindəkilər:*** Odabaşının hekayəsi; Acından təbib; Diş ağrısı; Şeyx Şəban.

## 1948

**43. Hekayələr və tərcümələr**: [ibtidai məktəb uşaqları üçün] /Əbdürrəhim bəy Haqverdiyev; red. M. Kamran. – Bakı: Uşaqgəncnəşr, 1948. – 112 s.

***Kitabın içindəkilər*:** **Hekayələr:** Acından təbib; Qaban; Çeşmək; Bomba; Qoca Tarzən; Ovçu Qasım; Haqq mövcud. – **Tərcümələri:** V.Qorki. İzergil qarı və qeyri-hekayələr; Arxip baba və Lyonka. – A.Çexov. Şadlıq. – H.Andersen. Padşahın təzə libası; Bülbül.

## 1949

**44. Xortdanın cəhənnəm məktubları:** [3-cü çapı] /Əbdürrəhim bəy Haqverdiyev; red. İ.Əfəndiyev.– Bakı: Azərnəşr, 1949. – 142 s.

**45. Qoca tarzən** /Əbdürrəhim bəy Haqverdiyev; burax. məs. C.Məcnunbəyov. – Bakı: Uşaqgəncnəşr, 1949. – 16 s.

## 1950

**46. Mirzə Səfər:**[hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Vəliyev. – Bakı: Uşaqgəncnəşr, 1950. – 88 s.

***Kitabın içindəkilər:*** Qəndil; Kapitalizmlə mübarizə; Şeyx Şəban; Diş ağrısı; Seyidlər ocağı; Qaban; Müsibət; Qoca Tarzən; Bomba; Mirzə Səfər.

**1951**

**47. Hekayələr:** [orta və böyükyaşlı uşaqlar üçün] /Əbdürrəhim bəy Haqverdiyev; red. Ə.Babayeva. – Bakı: Uşaqgəncnəşr, 1951. – 40 s.

***Kitabın içindəkilər*:** Bomba; Pir; Mirzə Səfər; Qoca Tarzən.

**1952**

**48. Hekayələr:** [orta yaşlı uşaqlar üçün] /Əbdürrəhim bəy Haqverdiyev. – Bakı: Uşaqgəncnəşr, 1952. – 40 s.

***Kitabın içindəkilər*:** Bomba; Pir; Mirzə Səfər; Qoca Tarzən.

**49. Qoca tarzən** /Əbdürrəhim bəy Haqverdiyev.–Bakı: Uşaqgəncnəşr, 1952. – 16 s.

**1953**

**50. Xəyalat:** [bir pərdəli pyes] /Əbdürrəhim bəy Haqverdiyev; red. T.Kazımov; Respublika Xalq Yaradıcılığı Evi və Respublika Mədəni-Maarif İşləri Metodkabinəsi. – Bakı: Qızıl Şərq, 1953. – 20 s.

**1954**

**51. Hekayələr** /Əbdürrəhim bəy Haqverdiyev; red. G.Həsənzadə. – Bakı: Uşaqgəncnəşr, 1954. – 40 s.

***Kitabın içindəkilər*:** Şikayət; Pir; Şəbih; Seyidlər ocağı; Pristav və oğru.

**1955**

**52. Xortdanın cəhənnəm məktubları:** [4-cü çapı] /Əbdürrəhim bəy Haqverdiyev; red. S.Qafarlı. – Bakı: Uşaqgəncnəşr, 1955. – 116 s.

***Kitabın içindəkilər:*** Bir neçə söz; Müqəddimə; Cəhənnəm; Odabaşının hekayəsi.

**1956**

**53. Seçilmiş əsərləri**: [iki clddə] /Əbdürrəhim bəy Haqverdiyev; tərtib, müqəddimə və qeydlər: A.Zamanov; redaktor: B. Cəfərov; bədii redaktor: M.Aslanov. – Bakı: Azərnəşr, 1956. – Cild 1: Pyeslər. – 552 s.

***Kitabın içindəkilər:*** **Pyeslər**: Yeyərsən qaz ətini, görərsən ləzzətini; Dağılan tifaq; Bəxtsiz cavan; Pəri-cadu; Millət dostları; Ağa Məhəmməd şah Qacar; Kimdir müqəssir; Ac həriflər; Xəyalat; Padşahın məhəbbəti; Ədalət qapıları; Ağac kölgəsində; Vaveyla; Köhnə dudman; Qadınlar bayramı; Yoldaş Koroğlu; Çox gözəl; Sağsağan.

**1957**

**54. Seçilmiş əsərləri:** [iki cilddə] /Əbdürrəhim bəy Haqverdiyev; tərtib edən: A.Zamanov; redaktor: M.Mirzəyev; bədii redaktor: M.Aslanov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1957. – Cild 2. – 416 s.

***Kitabın içindəkilər*: *Hekayələr*:** Ata və oğul; Ayın şahidliyi. – Xortdanın cəhənnəm məktubları; Bomba; Marallarım. – Müqəddimə əvəzinə; Mütrüb dəftəri; Şikayət; Dəcəlabad; Yaşılbaş sona; Qiraət; Şəbih; Pir; Acından təbib; Tənqid; Həmşəri pasportu; Keçmiş günlər; Uca dağ başında; Seyidlər ocağı; Çeşmək; Haqq mövcud; İt oyunu; Diş ağrısı; Şeyx Şəban; Röya; Qəndil; Kapitalizm ilə mübarizə; Mirzə Səfər; Qaban; Qoca tarzən; Söhbət; Ovçu Qasım; Qisas; Pristav və oğru; İanə; Yeni təbabət; Sarı toyuq; Müsibət; Koroğlu. – ***Məqalələr***: İki il; Beş il; Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti; Mirzə Fətəli və ərəb əlifbası; Mirzə Fətəlinin faciəsi; Maksim Qorkinin həyatı və yaradıcılığı; Azərbaycanda teatr.

**1958**

**55. Şeyx Şəban:** [hekayələr: 4-cü çapı] /Əbdürrəhim bəy Haqverdiyev; redaktor: Ə.Əhmədov; bədii redaktor: F.Quliyev.– Bakı: Uşaqgəncnəşr, 1958. – 47 s. – Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** Şeyx Şəban; Mirzə Səfər; Qoca tarzən.

**1959**

**56. Bəxtsiz cavan:** [faciə] /Əbdürrəhim bəy Haqverdiyev; müqəddimə K.Məmmədov; red. R.Şıxəmirova.–Bakı: Uşaq-gəncnəşr, 1959. – 68 s.

**1960**

**57. Marallarım:** [hekayələr] /Əbdürrəhim bəy Haqverdiyev; red. Y.Məmmədov; rəssam R.Babayev. – Bakı: Uşaqgəncnəşr, 1960. –108s.

***Kitabın içindəkilər:*** Diş ağrısı; İt oyunu; Haqq mövcud; Çeşmək; Seyidlər ocağı; Uca dağ başında; Keçmiş günlər; Həmşəri pasportu; Bomba; Acından təbib; Tənqid; Pir; Şəbeh; Dəcəlabad; Qiraət; Şikayət; Mütrüb dəftəri.

**1961**

**58. Xortdanın cəhənnəm məktubları** /Əbdürrəhim bəy Haqverdiyev; red. Y.Məmmədov. – Bakı: Uşaqgəncnəşr, 1961.– 144 s.

